www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 noyabr 2018-ci il Cümə № 250 (7139) Qiyməti 60 qəpik

**Xəbər**

**"Bir də görəcəklər ki, obyektləri əldən çıxdı"- prezidentin sərt xəbərdarlığı gerçəkləşir**

yazısı səh.7-də

**Gündəm**

**Avropa İttifaqının Azərbaycana qarşı böyük ayıbı**



Gələn ay Tiflisdə keçiriləcək Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumuna niyə Bakıdan heç kim dəvət edilməyib?; rəsmi Bakıdan etirazlar

yazısı səh.6-da

**Prezidentin Aşqabad səfəri - mühüm sazişlər imzalandı**

yazısı səh.3-də

*Tofiq Zülfüqarov:*

**"Ermənistan Rusiyanı itirəcək"**

yazısı səh.5-də

**Tikinti daşı bahalaşdı - səbəb həbslərdir, yoxsa...**

yazısı səh.7-də

**Rusiyada Putinin varisləri müzakirə olunur - üç mübhəm isim**

yazısı səh.9-da

**Erməni ordusunda acınacaqlı durum**

yazısı səh.10-da

**Moskvada şəmkirli iş adamını öz yerliləri öldürdü**

yazısı səh.11-də

**24 noyabra təyin olunan mitinqlə bağlı qeyri-müəyyənlik**

yazısı səh.12-də

**Təhsil kreditləri: dünya təcrübəsi nə deyir?**

yazısı səh.12-də

**Bölgələrdə vəhşi heyvanların insanlara hücumu artıb - rəsmi reaksiya**

yazısı səh.14-də

**Bayıl yamacında son durum: sakinlər odun daşıyır**

yazısı səh.11-də

# DİLQƏM VƏ ŞAHBAZIN QURTULUŞU YAXINLAŞIR - İRƏVAN DİLEMMA İLƏ ÜZ-ÜZƏ

Bakının "Hamını hamıya dəyişmək" təklifi işğalçı ölkəni qarışdırıb; Paşinyana daxili təzyiqlər artır; **erməni portalı:** "Ölən öldü, heç olmasa, əsirlikdəki erməniləri xilas edək..."




yazısı səh.8-də

## Eldar Mahmudovun kompromatlarını Zamirə Hacıyeva Londonda gizlədə bilər - sensasion gəlişmə

Həbsdəki sabiq bankir arvadının hədəfə gəlməsinin kökündə bu amil dayana bilər; Anar Mahmudovun Londonda təcili şirkət açmasının gizli videolarla nə əlaqəsi?

yazısı səh.4-də



**İlham Rəhimov vəfat edən sabiq nazirlə bağlı xatirələrini danışdı**

yazısı səh.3-də



**Abel Məhərrəmov varidatını YAP-ın kölgəsində qorumağa çalışır**

yazısı səh.6-da



*Rauf Arifoğlu:*

**"Camaat ondan nə gözləyirdi, o nə etdi..."**

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 250 (7139) 23 noyabr 2018



## Daha 304 şəhid varisinə 11 min manat veriləcək

**Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanının icrası ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində fəaliyyət göstərən Komissiyanın növbəti iclasında şəhid hərbi qulluqçulardan 223-ü üzrə 304 vərəsəyə də birdəfəlik ödəmənin (11 min manat) verilməsinə dair qərar qəbul olunub.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumatda bildirilib.

Qeyd edilib ki, Komissiyanın sədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Fərmanının icrası işlərinin davam etdiyini, notarial qaydada qəbul edilən sənədlərin nazirlikdəki işçi qrupu tərəfindən təhlil edilərək, Komissiyaya təqdim olunduğunu deyib. O bildirib ki, bu sahədə aparılan işlərin Azərbaycan Prezidenti İlham Əliyevin şəhid ailələrinə olan qayğısına, onlara birdəfəlik ödəmənin verilməsini nəzərdə tutan humanist addımına uyğun şəkildə, tam şəffaf şəkildə yerinə yetirilməsi başlıca prinsipdir.

Nazir qəbul edilmiş qərarlar üzrə vərəsələrə birdəfəlik ödəniş prosesinin davam etdiyini, ödənişi alan şəxslə ödənişi həyata keçirən qurum arasında heç bir təmasın baş vermədiyini, müvafiq vəsaitin vərəsələrin bank hesablarına köçürüldüyünü diqqətə çatdırıb.

Qeyd edək ki, Komissiya bu günədək artıq 447 şəhidin 585 vərəsəsinə ödəmənin verilməsi barədə qərarlar qəbul edib və onlara müvafiq vəsaitin ödənişi həyata keçirilir. Bununla yanaşı, qanuni qüvvəyə minmiş məhkəmə aktları əsasında 469 şəhid hərbi qulluqçu üzrə 471 vərəsə də ödənişlə təmin olunub.

## İran vətəndaşları saxta sənədlərlə Azərbaycana keçmək istədi

**DSX-dən verilən məlumata görə, son günlərdə 4 İİR vətəndaşının saxta sənədlərlə Azərbaycan Respublıkasının dövlət sərhədindən keçmək cəhdinin qarşısı alınıb.**

Belə ki, 21 noyabr 2018-ci il tarixdə "Tehran-Bakı" aviareysi ilə ölkəmizə uçub gələn İran İslam Respublikası vətəndaşları 1969-cu il təvəllüdlü Abdikord Əli Qulamrıza, 1978-ci il təvəllüdlü Ebrahimniaomrani Arzu Qulaməli, 2015-ci il təvəllüdlü Abdikord Afşin Əli oğlu və 2001-ci il təvəllüdlü Abdikord Afaq Əlinin sərhəd nəzarətinə təqdim etdikləri İtaliya pasportları şübhə doğurub, dərinləşdirilmiş laborator müayinə nəticəsində saxta olmaları müəyyən edilib.

Araşdırma zamanı saxlanılmış şəxslərin üzərində onlara məxsus İİR pasportları aşkar olunub, həmin pasportlara əsasən onların 17.11.2018-ci il tarixdə "Tehran-İstanbul" aviareysi ilə uçmaları və bir gündən sonra geri qayıtmaları müəyyən olunub. Saxta İtaliya pasportlarını da Türkiyədən almaları ehtimal edilir.

Müvafiq araşdırmalardan sonra saxlanılmış şəxslər gəldikləri istiqamətdə ölkə ərazisindən deportasiya olunublar.

## Babək prospektinin bir hissəsində hərəkət məhdudlaşdırılır

**Babək prospektinin bir hissəsində hərəkət məhdudlaşdırılacaq. AAYDA-dan verilən məlumata görə, təmir işləri ilə əlaqədar olaraq noyabr ayının 23-dən 24-nə keçən gecədən etibarən Yeni Günəşli yaşayış sahəsi istiqamətində Babək prospektinin Mikayıl Əliyev küçəsi ilə kəsişməsində (Maşın bazarı) yerləşən avtomobil körpüsünə giriş məhdudlaşdırılacaq.**

Babək prospektinin Məzahir Rüstəmov küçəsi ilə kəsişməsində kommunikasiya xətlərinin çəkilişi ilə əlaqədar olaraq aidiyyəti qurum tərəfindən qazıntı işləri aparıldığı üçün Məzahir Rüstəmov küçəsindən alternativ olaraq istifadə etmək mümkün deyil. Bu səbəbdən sözügedən istiqamətdə də, yəni prospektin Məhəmməd Hadi küçəsi ilə kəsişməsinin yan yolunda, Sərhəd Xidməti Olimpiya kompleksinin qarşısından avtonəqliyyat vasitələrinin hərəkəti tam olaraq məhdudlaşdırılacaq.

Sürücülər alternativ olaraq Məzahir Rüstəmov küçəsi çıxmaq şərti ilə, digər yollardan, daha dəqiqi Məhəmməd Hadi-Seyid Əzim Şirvani, Məhəmməd Hadi-Sarayevo və Məhəmməd Hadi-Neapol küçələrindən, Nobel prospekti-Ukrayna dairəsi, Nobel-Gəncə prospektləri və Nobel prospekti-Zığ şossesindən, həmçinin sadalanan keçə və prospektlərə birləşik olan digər yollardan istifadə edə bilərlər.

Məhdudlaşma şənbə və bazar günləri ərzində qüvvədə olacaq. Bazar ertəsi, yəni noyabr ayının 26-dan etibarən sözügedən istiqamətdə məhdudlaşma aradan qaldırılacaq.

**Başsağlığı**

**Professor İlham Rəhimov
sabiq ədliyyə naziri Nəriman Yusifovun
vəfatından kədərləndiyini bildirir,
mərhumun yaxınlarına və hüquq
ictimaiyyətinə
dərin hüznlə başsağlığı verir.**

# "Həzrət Abbasa and olsun ki, mənim və övladlarımın obyekti yoxdur..."

**Bakının 1-ci Zabrat qəsəbəsində, 18 Oktyabr küçəsində, yaşayış evlərinin arasında fəaliyyət göstərən və havaya hər gün təhlükəli tullantılar buraxan kustar metaləritmə sexinin Milli Məclisin üzvü Aqil Abbasa, yaxud övladlarından birinə məxsus olduğu barədə xəbər almışıq.**

Bu xəbər həmin sexin fəaliyyəti barədə virtualaz.org-un reportyor qrupunun reportajından sonra yerli sakinlər tərəfindən redaksiyamıza çatdırılıb. Məsələ ilə bağlı Aqil Abbasın özünə zəng vurduq və bu iddiaya münasibətini soruşduq.



"Həzrət Abbasa and olsun mənim, ailə üzvlərimin, övladlarımın hansısa obyekti, hətta köşkü belə yoxdur"-Aqil Abbas sualı dinləyib belə dedi.

Deputat əlavə etdi ki, hansısa yaxını, qohumu onun adından istifadə edə bilməz: "Basıb onların gözün çıxararam, mən heç bir yaxınıma, qohumuma adımdan istifadə etməsinə icazə vermirəm. Sosial şəbəkədə haqqımda mənfi fikirlər bildirirlər. Mənim yalnız bir qələmim var, onu mənə bəxş edən Allaha şükürlər olsun".

## Abel Məhərrəmovu BDU-dan çıxarmaq mümkün olmayıb

**Bakı Dövlət Universitetinin keçmiş rektoru Abel Məhərrəmov bu vəzifədən çıxarılsa da hələ də universiteti tərk etməyib. Çünki onun BDU-da "ehtiyat vəzifəsi" də var imiş.**

Bu barədə unikal.org-a istinadla yerli KİV-lər yazır. Belə ki, Abel Məhərrəmov-akademik və deputat BDU-da həm də "Üzvi kimya" kafedrasının rəhbəridir. Beləliklə, o, Madriddə keçirilən dini tolerantlıq konfransında Azərbaycan nümayəndə heyətinin digər üzvləri ilə sərxoş halda qalmaqal törətməsinin ardınca rektor vəzifəsindən azad edilsə də kafedra müdiri kimi qalır.

BDU-nun mətbuat katibi Pərvanə İbrahimova təsdiq edib ki, akademik Məhərrəmov "Üzvi kimya" kafedrasının rəhbəri vəzifəsində qalır və hər gün işə gəlir.

Abel Məhərrəmov barəsində ötən həftə mətbuata sızdırılan məlumatlara və işdən çıxarılmasına ilk dəfə dünən şərh verib. O, mətbuatı "şou yaratmaqda" günahlandırıb, bildirib ki, 19 ildir rektor kimi işləyirdi. İndi isə belə məsləhət olub ki, bir az dincəlsin...

Bununla belə keçmiş rektor Madriddə sərxoş vəziyyətdə dava salması və çəlləklərlə şərab aparması barədə deyilənlər haqda konkret danışmayıb.

## ABŞ-ın neft ehtiyatları rekord həddə çatdı

**ABŞ-ın neft ehtiyatları 447 milyon barrelə çatır. Bu barədə ABŞ-ın Enerji İnformasiya Administrasiyasının (EIA) məlumatında deyilir.**

Bildirilir ki, ABŞ-ın xam neft ehtiyatları ötən hesabat həftəsində 4,9 milyon barrel artaraq 446,91 milyon barrelə yüksəlib. Bu, 2017-ci ilin dekabrından indiyədək maksimum göstəricidir.

Bazar proqnozları isə ehtiyatların 2,9 milyon barrel çoxalacağı istiqamətində idi. Əvvəlki həftə ölkənin neft ehtiyatları 10,3 milyon barrel artmışdı.

ABŞ-ın benzin ehtiyatları ötən hesabat həftəsində 1,3 milyon barrel azalaraq 225,3 milyon barrel olub. Bazar proqnozları da ehtiyatların barrel azalacağı istiqamətində idi.

## Ermənistan KTMT-dəki daimi nümayəndəsini dəyişdi

**Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı (KTMT) daimi nümayəndəsini dəyişib.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, Ermənistan prezidenti Armen Sarkisyanın imzaladığı fərmana əsasən, bu ölkənin KTMT-dəki daimi və səlahiyyətli nümayəndəsi David Virabyan tutduğu postundan geri çağırılıb.

Prezidentin digər fərmanı ilə Viktor Biyaqov Ermənistanın KTMT-dəki yeni daimi və səlahiyyətli nümayəndəsi təyin olunub.

## "Nar"ın sərfəli internet qiymətləri müştəri loyallığı indeksini artırır

**Müstəqil araşdırma şirkəti tərəfindən aparılmış sorğunun nəticələrinə əsasən, "Nar" mobil internet istifadəçilərinin sayında və müştəri məmnuniyyətində sürətli artım müşahidə olunur. Son 10 ayda müştəri loyallığı indeksi 20%, internet məmnuniyyəti indeksi isə 23% artıb. Abunəçilərin fikrinə əsasən, "Nar" ən yaxşı internet qiymətləri təklif edən mobil operatordur.**




**"Nar" ölkə ərazisi boyunca 3G, 4G və LTE-A şəbəkəsini genişləndirməklə, abunəçilərə sərfəli qiymətə yüksək keyfiyyətli mobil internet paketlərini təqdim etməklə müştəri loyallığı indeksinin artımına müvəffəq olub. Bundan başqa, paytaxtla yanaşı, ölkənin regionlarına göstərdiyi diqqətilə seçilən "Nar", bölgələrdə ən ucuz mobil rabitə xidmətini təqdim edib və bununla da paytaxt sakinləri ilə yanaşı, bölgə abunəçilərinin loyallığını qazanıb.**

**Araşdırmanın nəticələrinə əsasən, mobil internetin keyfiyyəti, müştərilərin şəbəkəni öz dost və ailə üzvləri arasında istifadə etməsi, eləcə də tarif və qiymətlərin müxtəlifliyi və əlverişliliyi amillərinə görə "Nar" müştəri loyallığı indeksi yüksək nəticə göstərir.**

**Bundan başqa, nar.azinternet səhifəsində olan şəxsi kabinetlər, eyni zamanda "Facebook ", "Twitter" və digər sosial şəbəkələr üzərindən abunəçilərə göstərilən yüksək xidmətlər də müştəri məmnuniyyətini artırıb.**

**Ötən ilin 2-ci rübündə keçirilən mobil rabitə şəbəkələrinin müqayisəli testləri nəticəsində də "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticə göstərib. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni əhatə edir (işğal olumuş ərazilər istisna olmaqla) və 7300-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

## Ağ Evdən jurnalistlərə yeni qadağalar

**Musavat.com "Globalnews"-a istinadən xəbər verir ki, Ağ Ev mətbuat konfransları üçün yeni qaydalar elan edib. Bu qaydalara əsasən, brifinqdə iştirak edən jurnalistlər yalnız bir sual vermək hüququna malik ola biləcək, başqa sual vermək isə yalnız prezidentin və yaxud konfransa moderatorluq edən başqa bir rəsminin icazəsi ilə ola bilər.**

Jurnalistlər isə bu qaydalara əməl etməyəcəklərini bəyan ediblər. Qaydalar dərc edildikdən dərhal sonra Ağ Evə akkreditasiya olunmuş jurnalistlərin birləşdiyi reportyorlar assosiasiyası bəyan edib ki, jurnalistlər yeni qaydalara riayət etməyəcək və bir neçə sual verməyə davam edəcəklər.

"Ölkəmizin sağlamlığı üçün azad və müstəqil xəbərlərin ən təməl şərt olduğunu bilirik və bu qaydalara əməl etməyəcəyimizi bəyan edirik", - Assosiasiyanın prezidenti Oliver Noks qeyd edib.

YENİ MÜSAVAT
N 250 (7139) 23 noyabr 2018

# İlham Rəhimov vəfat edən sabiq nazirlə bağlı xatirələrini danışdı

## İlham Rəhimov: "Ömrüm boyu ona minnətdar olmuşam"

**Uzun sürən ağır xəstəlikdən sonra 92 yaşında vəfat edən sabiq ədliyyə naziri Nəriman Yusifovla noyabrın 22-də vida mərasimi keçirilib. Mərasim "Həzrət Əli" məscidində təşkil olunub.**



Mərasimdə iştirak edən hüquq professoru İlham Rəhimov ən yaxın dostlarından sayılan mərhumla bağlı xatirələrini "Yeni Müsavat"a bölüşüb: "Nəriman müəllimi 1980-ci ildən tanıyıram. O zaman Leninqrad Dövlət Universitetinin hüquq fakültəsini bitirib Elmlər Akademiyasında Fəlsəfə və Hüquq İnstitutunda təzə işə düzəlmişdim. Nəriman müəllim 1980-ci ildə Bakıya gəlmişdi. Ondan qabaq Moskvada işləyirdi, Ali Rəyasət Heyətində. Məni o zaman özü yanına çağırdı. Dedi ki, sənin haqqında eşitmişəm. Leninqradda oxuduğumu və müdafiə etdiyimi də söylədi. Həmin vaxt təzəcə ədliyyə naziri təyin olunmuşdu. Haqqımda eşitdiyini və yoldaşların da vəzifəyə məni gətirməyi məsləhət gördüklərini bildirdi. Hansı işin olacağı barədə sual verdim. Dedi ki, istəyirsən səni hakim göndərim. Hakim olmaq istəmədiyimi söylədim. Nəriman müəllim bu sözlərimdən sonra bildirdi ki, nazirlikdə Hüquq Təbliğatı Şöbəsi var və istəyirsən səni ora müdir təyin edim. Bununla razılaşdım. O vəzifədə çalışdıqdan qısa müddət sonra məni idarə rəisi təyin edərək vəzifəmi daha da böyütdü. Həmin vaxt "partiya dövrü" idi. Nəriman müəllim Mərkəzi Komitədə məsələ qaldırıb ki, Ədliyyə Nazirliyində Partiya Təşkilatının rəhbəri İlham Rəhimov olsun. Bu vəzifəyə məni təsdiqlədi. Bunları deməkdə məqsədim odur ki, həyatımda Nəriman müəllimin nə qədər zəhmətinin olduğunu hər kəs bilsin. Mənə həddindən artıq böyük hörmətlə yanaşırdı. İlk vəzifəyə başladığım illərdə gənc idim, dövlət işlərində təcrübəli deyildim. Amma o, Moskvada işləmişdi və böyük təcrübə toplamışdı. Ali Sovetin Rəyasət Heyətində işləmək elə-belə məsələ deyildi. Onun yanında işlədiyim illərdə çox böyük təcrübə topladım. Nəriman müəllim çox məsuliyyətli insan idi. İstəyirdi ki, işçilərə də belə olsun. Onunla işləmək bir tərəfdən asan, digər tərəfdən çox çətin idi. Ona görə asan idi ki, heç vaxt qanunsuz tapşırıq verməzdi. Bu da hər kəsə sərf edir. Çünki qanunsuz tapşırıq alan insan iki daş arasında qalır. Bilmirsən icra edəsən, ya yox. Onunla işləməyin çətin tərəfi isə o idi ki, sən hazırladığın sənədi oxumadan heç vaxt qol çəkməzdi. O sənəddə mütləq nəsə bir nöqsan tapmalı idi. Bu metodla şəxsən məni sənədlərin üzərində işləməyi öyrətdi. Ona görə ömrüm boyu ona minnətdar olmuşam. Bundan sonra da belə olacaq. 80-ci illərin ortalarından etibarən Moskvaya gedib orada çalışmağa başladı. Amma heç vaxt münasibətimiz kəsilmədi. Onun özü də hər zaman münasibət saxlayırdı. Çox gözəl bir insan idi".



**Hüquq professoru mərhumla yaş fərqlərinin çox olmasına baxmayaraq, onu özünə daha çox dost kimi seçdiyini də qeyd etdi:** "Nəriman müəllim həm də çox gözəl dost idi. Onunla bağlı bir məqamı heç zaman yadımdan çıxarmaram. Öz övladlarıma da bunu deyirəm. Nazirlikdə işlədiyim vaxt bir dəfə daxili telefonla mənə zəng etdi. Nəsə bir məsələ ilə bağlı dedi ki, bunu icra etmək lazımdır. İşə təzə gəlmişdim və dedim ki, baş üstə. Mənə dedi ki, gəl otağıma. Onun otağına getdim. Dedi ki, heç vaxt kiməsə nazir və ya digər vəzifə sahibi olmasından asılı olmayaraq "baş üstə" sözünü işlətmə. Bunun səbəbini soruşdum. Dedi ki, bu sözü deməklə sanki kiminsə evində işləyirsən, onun şəxsi qulusan. Dövlət idarəsində işlədiyimi bildirdi və onu da söylədi ki, belə davransan, sənin tabeçiliyində çalışan insanlara da "baş üstə" sözünü öyrədəcəksən. Bunun etməməyimi dönə-dönə tapşırdı. O vaxtdan bəri çox yerlərdə işləmişəm, mənə çox tapşırıqlar verilib, amma heç vaxt "baş üstə" sözünü işlətməmişəm. Tabeçiliyimdə olan insanlara da heç vaxt bu sözü deməyə imkan verməmişəm. Hətta "baş üstə" deyənlərin sözlərini ağızlarında qoymuşam və demişəm ki, mənə bu sözü işlətməyin. Bir şeyi də ondan öyrənmişəm. Xasiyyətcə çox çətin bir insan idi. Hər adam onunla işləyə bilməzdi. Onun xarakterindən çox şeylər götürmüşəm. Ən vacibi də ondan ibarət idi ki, özündən vəzifəcə yuxarı pillədə olan şəxslərlə danışıqda özünü çox sərbəst, müstəqil aparırdı. Özündən aşağı pillədə olan şəxslərlə isə çox mülayim idi. Mən də beləyəm və belə olmağı ondan öyrənmişəm. Həyatım boyu da belə olacaq".

**İ.Rəhimov mərhumun şəxsi həyatında başqa cür insan olduğunu söylədi:** "Qeyd etdiyim kimi, o, nazir olduğu vaxt mən də nazirlikdə işləyirdim. Həmin vaxtlar ezamiyyətə gedəndə Kremldə iki həftə bir yerdə olmuşuq. Ondan qabaq Nəriman müəllim Kremldə işləmişdi. Orada gördüm ki, köhnə işçiləri onu necə qarşılayır. Kişi və ya qadın fərq etmirdi, hamının ona münasibəti eyni idi. Hər kəs Nəriman müəllimi qucaqlayıb hal-əhval tuturdu. Birlikdə çörək yeyirdik. Axşamlar görüşüb söhbət edirdik. Məndə həmin vaxt elə bir təsəvvür yarandı ki, nazir olan Nəriman Yusifovla indiki Nəriman Yusifov fərqli adamlardır. Onun mənə münasibəti bir ata kimi idi. Ölənə kimi də mənə oğlu kimi baxdı. Təəssüf edirəm ki, son günündə Nəriman müəllimin yanında ola bilmədim. Təxminən üç həftə əvvəl mənə zəng vurdu ki, səni görmək istəyirəm. O, Xızıda qalırdı. Dedim ki, gələrəm. Amma buna razı olmadı və dedi ki, maşın göndər özüm gələrəm. Gəldi, oturub söhbət etdik. Nədənsə özünü son vaxtlar yaxşı hiss etmədiyini bildirdi. Mənə sözlərinin olduğunu dedi, mən də "buyurun" dedim. Orada nə danışdıqlarımız müsahibə söhbəti deyil. Özünü necə hiss etdiyini soruşdum, hələ ki normal olduğunu söylədi. Onun 80-90 illik yubileylərini mən keçirmişəm. Moskvada biznes fəaliyyətimi quranda onu özümə işçi götürmüşdüm. Ölənə kimi mənim işçim oldu. Aydın məsələ idi ki, işləmirdi. Bunu sadəcə ona görə etmişdim ki, bu insan hələ də işlədiyini hiss etsin. Burada başqa bir şey yoxdur. Ondan soruşandakı nə işlə məşğulsan, deyirdi ki, İlham müəllimin işçisiyəm. Mənəvi cəhətdən özünü rahat hiss etməsi üçün bunu etmişdim. Doğum günü iyulun 17-i idi. Xaricdən həmin vaxt gəlib, 90 illiyini keçirmişəm. Nə problemi, dərdi olanda çəkinmədən mənə zəng edirdi. Onunla dərdləşirdik. O, mənə həddindən artıq yaxşılıqlar edib. İlk dəfə dövlət işində çalışmağım o kişinin adı ilə bağlıdır. Nəriman müəllimin ölüm xəbərini Tovuzda aldım. Təzəcə rayona çatmışdım. Dərhal geri qayıtdım və şəhərə yaxın bura çatdım. Nəriman müəllim elmlər namizədi idi. Vaxtı ilə Elmlər Akademiyasında da işləyib. Çox gözəl qələmi var idi. "12 il Moskva-da-Kremldə" kitabının müəllifidir. O kitabı oxumağa başlayanda yerə qoymaq istəmirsən".

**Sonda mərhumun həyatı barədə qısa məlumat verək:**

Nəriman Həbib oğlu Yusifov indiki Ermənistanın ərazisində qalmış qədim Azərbaycan torpağında, Vedibasar mahalının Böyük Vedi kəndində doğulub. Bakıda ali hüquq təhsili alıb. Müxtəlif vəzifələrdə çalışıb. 1966-78-ci illərdə 12 il Moskvada, Kremldə SSRİ Ali Soveti Rəyasət Heyətinin aparatında məsul vəzifələrdə işləyib. Nəriman Yusifov Moskvada çalışdığı illərə dair "12 il Moskvada - Kremldə" adlı kitab yazıb. Kitabda müəllif Mikoyan, Şevardnadze, Voroşilov, Georqadze, marşal Budyonnı, Kosıgin, Rudenko ilə bağlı xatirələrini qeyd edib.

Azərbaycana döndükdən sonra N.Yusifov Bakı şəhər prokuroru, ədliyyə naziri vəzifələrində çalışıb.

***Allah rəhmət eləsin!***

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Prezidentin Aşqabad səfəri - mühüm sazişlər imzalandı

**Noyabrın 22-də Azərbaycan prezidenti İlham Əliyevin Aşqabaddakı Müstəqillik Meydanında rəsmi qarşılanma mərasimi olub. Azərbaycanın və Türkmənistanın dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevi Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov qarşılayıb.**

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüş olub. Dövlət başçıları görüşdə iki ölkə arasında münasibətlərin inkişafından məmnunluqların qeyd ediblər.

Təkbətək görüş başa çatandan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş olub. Görüş başa çatdıqdan sonra prezidentlərin iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub.

Öncə hər iki ölkə başçısı Birgə Bəyanatı imzalayıblar. Tədbirdə "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş", Azərbaycan Milli Elmlər Akademiyası ilə Türkmənistan Elmlər Akademiyası arasında əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üçün elm, təhsil, mədəniyyət və incəsənət sahəsində Əməkdaşlıq Proqramı", "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında Saziş", "Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Türkmənistanın Sənayeçilər və Sahibkarlar Birliyi arasında Anlaşma Memorandumu", "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti və Türkmənistanın Dəmir Yolu Nəqliyyatı Nazirliyi arasında nəqliyyat və tranzit məsələlərinə dair Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan iki dövlətin (əlavə) ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımaların iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi haqqında Saziş" və digər əməkdaşlıq sahələrinə aid sənədlər imzalanıb.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyev və Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov mətbuata birgə bəyanatla çıxış ediblər.

Noyabrın 22-də Türkmənistan prezidenti tərəfindən Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib. Azərbaycan prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri noyabrın 22-də başa çatıb.

YENİ MÜSAVAT
N 250 (7139) 23 noyabr 2018



# "De, haralısan, deyim, haqlısan, ya yox"...

Xalid KAZIMLI

**İki adamın davası nədən bu qədər ümummili problem həddinə çatdırılsın ki? Üç gündür saytlar bu barədə yazır, sosial şəbəkələrdə isə "qırğın" gedir.**

Mat qalmalı işdir. Çox da ki, qovğa tərəflərindən biri tanınmış rejissor-aktyor, o biri məktəb direktorudur.

Bu qovğa ətrafında mübahisə edənlərin əsasən iki tirəyə ayrılması isə ifrata çatmış şəkildədir və ehtiraslar son dərəcə qızışıb.

Yəni bu nədir? İqtidar-müxalifət qarşıdurmasıdırmı? Deyil. Rejissor Rza Rzayev də hakimiyyətə yaxın adamdır, məktəb direktoru Tural Mirzəliyev də dövlət qulluqçusudur.

Onların mübahisəsinin predmeti isə siyasi motivli, ideoloji səciyyəli deyil, sırf məişət xarakterlidir.

Bəlkə ortada bir ictimai yönümlü haqq-ədalət davası var? O da yoxdur. Mübahisənin məğzinə diqqət yetirdikdə, açıq-aşkar görünür ki, bu, başqalarının bitərəf qalmalı, münaqişənin həllini tərəflərin özünə buraxmalı olduğu məsələdir.

Ancaq maraqlıdır ki, dünənə qədər müəllimləri, xüsusilə də məktəb direktorlarını seçki saxtakarlığında ittiham edən, qınayan, pisləyən bir çoxları bu məsələdə məhz direktorun tərəfindədirlər, onu zərərçəkmiş, az qala dissident elan edirlər.

Eyni zamanda Rza Rzayevin də çoxsaylı dostları qızğın şəkildə onun yol verdiyi hərəkətə haqq qazandırırlar.

Ortada olan anormal durum ondan ibarətdir ki, iki nəfərin arasında olan məişət xarakterli yaxalaşma-itələşmə dövlət rəsmilərinin, hüquq-mühafizə orqanları rəhbərlərinin münasibət bildirməli olduğu böyük cinayət hadisəsi kimi qələmə verilir.

Düzdür, əlbəyaxa olanlar yüngül xəsarətlər alıblar, amma bu, sonu polis bölməsində barışıqla bitməli olan bir qovğadır, ortada cinayət yoxdur, inzibati xətadır. Yox, cinayət varsa, onda hər iki tərəf həbs edilməlidir. Çünki hər ikisinin əl-qolunda, üz-başında sıyrıqlar var. Onlardan birini azadlıqda buraxıb, digərini həbsə atmaq ədalətsizlik olar.

İndi necə olsun, adamlar əsəblərini cilovlaya bilməyərək bir-birinin yaxasından yapışıblar deyə aylarla məhkəmədə sürünsünlər, bir neçə illik məhbəs həyatı yaşasınlarmı?

Bu, bir acı şillə yemiş hikkəli birisinin aqressiv rəqibinə ölüm cəzası tələb etməsi qədər "ədalətli" iddia olar.

Hər bir hərəkətin, qəbahətin öz uyğun cəzası var. Elə hərəkətlər də var ki, hər kəs onu özünə böyük təhqir kimi qəbul etsə də, heç kəs təhqir edənin cəzalandırılması üçün hüquq-mühafizə orqanlarına müraciət etmir, üzbəüz olaraq şəxsən reaksiya verir, məsələ bitir.

Rejissor-direktor qovğasında elə bir hərəkətdən bəhs edilir. Ancaq çox adam bunun üstündən keçərək, tərəflərin hirsli başla söylədiyi ayrı-ayrı ifadələrə, bəzən isə ləhcəyə fokuslanırlar.

Bir adamın haralı olması, harada doğulması onu hər mübahisədə haqlı etmədiyi kimi, haqsız da etmir. Bu amilə vurğu salınması isə çox yanlışdır, məsələnin mahiyyətini başqa müstəviyə keçirməkdir.

Tam əminliklə demək olar ki, əzizinin müdafiəsinə qalxaraq direktora sərt təpki göstərmiş, inzibati xətaya yol vermiş Rza Rzayevin yerində ölkənin başqa mahalında doğulmuş biri olsaydı, o zaman ictimai rəyi məktəb direktoruna qarşı yönəldənlər çox olacaqdı.

Necə ki, ötənlərdə İH başçısını güllələyən şəxsi qəhrəman elan edənlər çox idi.

Bizdə bir hadisəyə qiymət verərkən məsələnin məğzindən çox ixtilaf tərəflərinin siyasi mənsubiyyətinə, hansı bölgədə doğulduğuna, sosial təbəqədəki mövqeyinə nəzərən rəy bildirir, səf (cərgə) tuturlar.

Əgər mübahisə tərəflərindən biri rəy bildirənin yerlisidirsə, o, həmin şəxsin nə dərəcədə haqsız olmasına fikir verməyəcək, onun haqlı olduğunu bəyan edəcək. Münaqişə tərəflərindən biri dövlət məmurudursa və haqlıdırsa, ictimai rəydə haqsız duruma salınacaq. Adam müxalifətçidirsə, amma günahsızdırsa, bu dəfə də hakimiyyət tərəfdarları onun təqsirkar elan edəcəklər.

Yavaş-yavaş hamının müstəntiqə, hakimə, eləcə də vəkilə çevrildiyi duruma gəlirik. Bütün bu cür hadisələr haqq-ədalətə zərbədir. Baş vermiş hansısa hadisəyə münasibət bildirərkən din və təriqət birgəliyi, siyasi və regional mənsubiyyət, peşə və nəsil həmrəyliyi, cinsi təəssübkeşlik kimi amillər rol oynamamalıdır. Belə olanda ədalətli olmaq olmur.

**Bir çox hallarda isə bitərəf qalmaq mümkündür. Buraxın, tərəflər öz problemlərini özləri öz aralarında və hüquq-mühafizə orqanlarının vasitəsilə həll etsinlər. Belə hadisələr bizim çırmanıb qarşı duran səngərlərə girməyimiz üçün çox xırda məsələlərdir.**

# Eldar Mahmudovun kompromatlarını Zamirə Hacıyeva Londonda gizlədə bilər - sensasion gəlişmə

## Həbsdəki sabiq bankir arvadının hədəfə gəlməsinin kökündə bu amil dayana bilər; Anar Mahmudovun Londonda təcili şirkət açmasının gizli videolarla nə əlaqəsi?

**Beynəlxalq Bankın həbsdəki sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva girov müqabilində azadlığa buraxıldıqdan sonra hazırda London polisinin nəzarəti altındadır. Z.Hacıyevanın gözlənilmədən dinc həyatının bu cür dəyişməsi bir çox iddialara səbəb olub. Həmin versiyalardan biri də Z.Hacıyevanın qudası Eldar Mahmudovla sıx əlaqələrinin olması ilə bağlıdır.**






Belə iddialar var ki, Eldar Mahmudov vəzifədə olduğu illərdə ən müxtəlif üsullardan istifadə etməklə topladığı kompromatların - əsasən gizli videoları, qanunsuz dinləmə yolu ilə əldə edilən səs yazılarının böyük əksəriyyətini Londonda saxlayır. E.Mahmudov vəzifəsindən çıxarılandan sonra onun rəhbərlik etdiyi bandanın təkcə sahibkarları soyub-talamadığı, hələ də tam çevrəsi bilinməyən şəxslər barədə şantaj xarakterli videomateriallar topladığı üzə çıxmışdı. MTN-in keçmiş zabiti Ərəstun Oruclu mətbuata müsahibəsində demişdi ki, MTN qruplaşmasının əlində tanınmış və imkanlı şəxsləri, ictimai fəalları və digərlərini şantaj etmək üçün gizli çəkilişlər var. Keçmiş MTN zabiti Mahmudovun videotekasındakı CD-lərin konkret sayını da açıqlamışdı - 2 min 800 şantaj videosu. Ərəstun Oruclu 2800 rəqəminin ona mötəbər mənbələrdən verildiyini diqqətə çatdırmış, lakin başqa detallar haqda danışa bilmədiyini söyləmişdi.

Hələ o dövrdə "Eldar Mahmudov həmin kompromatları harada saxlaya bilər" sualına cavab axtararkən ən çox diqqətçəkən persona sabiq nazirin qudası, hazırda axtarışda olan Z.Hacıyeva oldu. Bu da səbəbsiz deyildi. Britaniyada "İzahedilməz Sərvət Sərəncamı" (UWO) tətbiq olunmadığı dövrlərdə Zamirə Hacıyeva faktiki olaraq Azərbaycan hakimiyyəti üçün əlçatmaz idi.

Yada salaq ki, E.Mahmudovun həbs edilməməsi ilə bağlı ən ağlabatan iddialardan biri əlində ki kompromatlar göstərilirdi. Aydındır ki, sabiq nazir əlindəki materialları, onu həbsdən qurtaran videoları ölkə daxilində deyil, xaricdə və ən etibar etdiyi şəxsdə saxlayır. Belə şəxs kimi Z.Hacıyeva ən ideal personadır.

Eldar Mahmudovla Z.Hacıyevanı şəxsi tanışlıqları hələ quda olmazdan əvvələ söykənir. E.Mahmudov 2004-cü ildə nazir təyin olunandan 8 ay sonra - 2005-ci ilin martında "Qara kəmər" əməliyyatı baş tutdu. MTN-in gerçəkləşdirdiyi əməliyyat zamanı Hacı Məmmədovun bandası ifşa edildi. Sağ-salamat azad ediləndən sonra Z. Hacıyevanın onun azad edilməsinə rəhbərlik etmiş bir şəxsə dərin minnətdarlıq hissinin olması da təbiidir. Sonradan Mahmudovlarla Hacıyevlərin qohum olmasında bu olayın yer alması ehtimalı da böyükdür. Z.Hacıyeva ilə Eldar Mahmudovu yaxınlaşdıran bir qadının girovluqdan azad edilməsi və üzərindən yaranan qohumluq bağlarıdır. Tərəflər bir-birinin inamını, etibarını, etimadını illər əvvəl qazanıb və ötən zaman ərzində qohumluq bağları bu güvəni bir qədər dərinləşdirib. Bu səbəbdən də kompromatları ən etibarlı şəxslərindən bir olan Z.Hacıyevaya verməsi, ehtiyac yarandığı təqdirdə ictimailəşdirilməsi haqda qərar qəbul etmə səlahiyyəti verməsi də mümkündür.

Digər diqqətçəkən məqam da var - Z.Hacıyeva saxlanılandan az əvvəl E.Mahmudovun oğlu Anar Mahmudov Böyük Britaniyada MEA Capital Limited adlı maliyyə şirkəti açıb. Məgər Z.Hacıyevanın kürəkəni, Eldar Mahmudovun oğlu həmin şirkəti daha əvvəl aça bilməzdi? A.Mahmudovun şirkəti Londonda bu ilin 11 oktyabrında qeydə alınıb və ona 11618237 nömrəli müvafiq sertifikat verilib. Şirkətin adındakı MEA abreviaturası simvolik məna daşıyır: Mahmudov Eldar və Anar. Yayılan məlumatlarda deyilirdi ki, pul vəsaitləri- hansı ki, E.Mahmudovun əlinin altında olan poqonlu quldurlar tərəfindən Azərbaycan biznesmenlərindən zor və şantajla qoparılıb- əsasən bu şirkətdə cəmləşib.

Mümkündür ki, təkcə pul vəsaitləri deyil, kompromat materiallar da Z.Hacıyevadan alınaraq həmin şirkətin seyflərinə doldurulub.

Britaniya mənbələrinin xəbərinə görə, "MEA Capital Limited" şirkətinin yaradılması üçün C.Hacıyevin rəhbəri olduğu və soyub-taladığı Beynəlxalq Bankının vəsaitlərindən də istifadə olunub. Anar Mahmudovun şirkəti Londonun dəbdəbəli rayonunda, Temza sahillərindəki mülklərdən birində qeydiyyata götürülüb.

Bir məqama da diqqət edək - Z.Hacıyevanın adı son olaylardan xeyli əvvəl, məhz Eldar Mahmudovun əlində 2800 seks videosunun olması xəbəri ictimailəşəndən sonra gəlmişdi. Buna qədər Z.Hacıyevanın həyat yoldaşı, hazırda həbsdə olan Beynəlxalq Bankın sədri Cahangir Hacıyevin adı aylarla mətbuatın gündəmində olsa da, Z.Hacıyevanın barəsində məlumatlara rast gəlinmirdi.

Üstəlik, 2800 video haqda məlumatlar ictimailəşəndən sonra Z.Hacıyevanın Beynəlxalq Bankın xəzinəsindən həyat yoldaşının pul qabı kimi istifadə etməsi yada düşmüşdü. Elə həmin günlərdə də Z.Hacıyevanın barəsində cinayət işi başladı, onu axtarışa verdilər. Həmin günlərdə Z.Hacıyevanın vəkili açıqlama verib demişdi ki, müvəkkili xarici ölkə vətəndaşıdır və onun ekstradisiyası da mümkün deyil. Bu məqam Z.Hacıyevanın E.Mahmudovun kompromatlarını ən etibarlı şəkildə qoruyub saxlamaq üçün imkanlara malik olduğu qənaətini möhkəmlətmişdi. Artıq Z.Hacıyevanın xarici ölkə vətəndaşı olması onun Azərbaycana ekstradisiyasının qarşısını alan amil deyil. Bu da onun E.Mahmudovun həbsindən illər öncə əlindəki materialları Hacıyevlərin xaricdəki mülklərindən birinin zirzəmisində, mansardında gizlədilmiş seyfin içində, ya da hansısa gözəllik ilahəsi şəklində imarətin bir küncünə qoyulmuş heykəlin içindəki gizli dolabda saxlamasını təhlükəli edir. Bunu Eldar Mahmudov da dərk edir. Onun kompromat arxivi sahibinin qudasından oğluna dəyişdirməsi də təəccüblü olmamalıdır. Bu halda isə Z.Hacıyevanın Azərbaycan hakimiyyəti üçün əhəmiyyəti azalır, Anar Mahmudov əsas hədəfə çevrilir. Sabiq nazirin oğluna qarşı ittihamları artacağı halda bu ehtimalların reallıqla əlaqələri də dəqiqləşəcək.

**Qeyd edək ki, Z.Hacıyeva Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə) maddəsi ilə suçlu bilinir. 2017-ci ilin iyununda Nərimanov Rayon Məhkəməsi barəsində 4 ay müddətə həbs-qətimkan tədbirinin seçilməsi haqda qərar verib. Cahangir Hacıyevə gəldikdə isə 2015-ci ilin dekabrında həbs olunub və 2016-cı ilin oktyabrında Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilib. Apelyasiya Məhkəməsi də hökmü qüvvədə saxlayıb. C.Hacıyev özünü təqsirli bilmir. Cahangir Hacıyevə 3 ay əvvəl yeni ittihamlar da irəli sürülüb və o, Bakı İstintaq Təcridxanasına köçürülüb. Noyabrın 10-da Qaradağ Rayon Məhkəməsi "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti (ASC) İdarə Heyətinin keçmiş rəhbəri Cahangir Hacıyevin yeni istintaq üzrə həbs müddətinin daha 2 ay artırılması ilə bağlı qərar verib. Məlumata görə, məhkəmə ibtidai istintaqın təqdimatı əsasında qərar çıxardıb. C.Hacıyev hazırda mülkiyyət əleyhinə, iqtisadi fəaliyyət və dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi, kommersiya, qeyri-kommersiya təşkilatlarinda qulluq mənafeyi ilə bağlı cinayətlərdə ittiham olunur. Onun Cinayət Məcəlləsinin 179 (mənimsəmə), 193 (cinayət yoluyla əldə edilmiş pulların leqallaşdırılması), 213 (vergidən yayınma), 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 309 (vəzifə səlahiyyətlərini aşma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə istintaq edildiyi bildirilir.**

❑ E.HÜSEYNOV,
"Yeni Müsavat"

# "Ermənistan Rusiyanı itirəcək"

## Tofiq Zülfüqarov: "Paşinyan Qarabağ erməniləri ilə Ermənistan erməniləri arasında ziddiyyətləri dərinləşdirəcək"

**Türkmənistana səfər edən Azərbaycan prezidenti İlham Əliyev noyabrın 22-ə həmkarı Qurbanqulu Berdiməhəmmədovla görüşdü. Səfər çərçivəsində bir sıra vacib sazişlər imzalandı, iki dövlətin liderləri qarşılıqlı şəkildə əməkdaşlıq perspektivləri ilə bağlı vacib mesajlar verdilər.**



Bir məqam xüsusi diqqət çəkir ki, cari ildə Azərbaycan prezidenti postsovet məkanındakı bir sıra ölkələrə səfərlər edib. Fakt budur ki, keçmiş SSRİ respublikalarının bir çoxunda erməni diasporu kifayət qədər güclü olub. Bu isə Qarabağ məsələsinin ədalətli həllində hər zaman əngəl olub. Azərbaycan prezidentinin MDB ölkələrinə son səfərləri öz bəhrəsini verməkdədir. Artıq Ermənistan hətta KTMT-də belə, təklənmiş vəziyyətə düşüb. Sabiq xarici işlər naziri Tofiq Zülfüqarovla bu və başqa mövzularda danışdıq:

- SSRİ dağılandan sonra postsovet məkanında bir metodologiya, nəzəriyyə hökm sürürdü, siyasi baxışlar çox populyar idi. Bu baxışların bir qismi erməni diasporu tərəfindən formalaşırdı. Belə bir vəziyyət yaranmışdı ki, Ermənistan postsovet məkanında Rusiya üçün ən vacib ölkələrdən biri kimi təbliğ olunurdu. Amma artıq tarix, iqtisadiyyat və reallıqlar hər şeyi öz yerinə qoyur. Hamı başa düşür ki, Azərbaycan iqtisadi, siyasi müttəfiq kimi bu regionda ən vacib, ən böyük və ən effektiv portnyordur. Bu baxımdan reallığın üzə çıxarılması istər-istəməz Ermənistanı belə təcrid vəziyyətinə qoyub. Çünki onların təbliğ etdiyi siyasət heç kəs tərəfindən dəstəklənə bilməz. Yəni hansısa qonşunun torpağını işğal etmək, etnik təmizləmə həyata keçirmək olmaz və s. Bunun nəticəsində də sənə kimsə dəstək verə bilməz. Nə qədər istəsəniz təbliğat apara, Rusiya kanallarını tuta, cəfəngiyat danışa bilərsiniz, amma reallığı ən azı, siyasi elita başa düşür. Bu baxımdan Azərbaycan prezidentinin aktiv siyasəti reallığı üzə çıxardır. Hesab edirəm ki, bu proses davam etdiriləcək. Ermənistanın təcrid vəziyyətində olması gec-tez onların siyasətinin məhvinə gətirib çıxaracaq. Artıq KTMT-də Belarusdan başqa, Qazaxıstanın da Azərbaycana dəstəyi var. İndi ermənilər ümidlidirlər ki, Rusiya bizi ikitərəfli qaydada, hərbi sazişlər çərçivəsində müdafiə edəcək. Belə şərhlər var.

***- Realdırmı?***

- Ümumiyyətlə, Rusiyanın dəstəyi sual altındadır. Biz heç vaxt görməmişik ki, yüksək səviyyəli siyasətçilər, dövlət başçıları desinlər ki, Ermənistan müttəfiqimizdir, ona nəsə olsa, biz Azərbaycanı vura bilərik. Orta səviyyəli mütəxəssislər, politoloqlar belə fikirləri səsləndirirlər. Amma yüksək səviyyədə heç vaxt bu cür bəyanatlar səslənməyib. Bu da bir siyasi fantomdur. Yəni reallıqdan uzaq fikir formalaşdırırlar ki, guya Rusiya bunları dəstəkləyəcək.

***- Nikol Paşinyan "hamı bizimlə hesablaşacaq" deməklə faktiki olaraq həm də Rusiyaya meydan oxudu. Bunun cavabı nə olacaq? Bu gedişlə Ermənistan sonuncu, istinad etdiyi müttəfiqini də itirə bilərmi?***

- Bu proses qaçılmazdır. Bir neçə ay bundan qabaq mütəxəssislər bu cür fikirləri səsləndirəndə mən həmişə deyirdim ki, Rusiya Ermənistandan çıxacaq. Bunu deyəndə çoxları mənimlə mübahisə edirdilər ki, bəs, bu, mümkün olan şey deyil. Reallıqlar hər şeyi göstərir. İndi hamı başa düşür ki, Ermənistan iqtisadi və siyasi baxımdan Rusiya üçün heç bir əhəmiyyət kəsb etmir. Baxın, Türkiyə-Rusiya əməkdaşlığı yüksələn xətlə inkişaf edir. Yeni Ermənistanın seçdiyi siyasət üçün heç bir perspektiv yoxdur. Digər siqnallara baxın. Televiziyalarda, müxtəlif tədbirlərdə Ermənistana qarşı çox tənqidi fikirlər səslənir. Ermənistan mətbuatında xeyli yazılar gedir. Artıq Rusiya əleyhinə tənqidi fikirlər, şərhlər çoxalıb və adiləşib. Qabaqlar biz heç belə şərhləri eşitməmişdik. Ancaq indi belə tənqidlər hətta rəsmi şəxslərin dilindən də səslənir.

***- Belə nikbin qənaətə gəlmək olarmı ki, Ermənistanın qərbyönümlü mövqeyinin qarşılığında Azərbaycanın postsovet məkanına xitab etməsi və əlaqələrini gücləndirməsi MDB ölkələrində mövqeyimizin birmənalı olaraq dəstəklənməsinə və Ermənistanın təklənməsinə gətirib çıxaracaq?***

- Əslində Ermənistanın qərbyönlü siyasətində də problemlər var. Baxın, Boltonun səfərindən sonra ABŞ-a ünvanlı nə qədər tənqidlər səslənib. Paşinyan az qala Boltona dedi ki, öz adından danışsın, mənim adımdan yox. Kimsə hesab edirsə ki, bunlar qərbyönlü siyasət yeridirlər, burda da problemlər var.

***- Parlament seçkiləri öncəsi ölkəsinin müttəfiqlərini itirən Paşinyanı seçkidən sonra nələr gözləyir?***

- Yuxarıda qeyd etdim ki, o, gec-tez başa düşəcək. Adını deməyəcəyəm, regionda çox böyük nüfuza malik xarici diplomatla bu mövzuda söhbətim olub. Onun fikri bundan ibarət idi ki, Paşinyan heç vaxt vəziyyəti dərk etməyəcək. Çünki o, buna hazır deyil, real siyasətdən uzaq insandır. Bəlkə də reallıqları başa düşməyə qadir deyil. Həmin diplomat bir neçə ay əvvəl bunu demişdi. İndi onun dedikləri real görünür. Paşinyan indi siyasi mühitdə özünü kənardan gələn bir insan kimi aparır. Lukaşenkoya, Nazarbayevə iradlar tutur. Türkiyəyə, Azərbaycana qarşı çıxışlar edir. Bir azdan Rusiyaya qarşı da çıxış edəcək, daha nə qalıb ki... Hamıdan incimiş vəziyyətdədir.

***- Bu təklənmənin onun hakimiyyətini məhvə apardığını demək olarmı?***

- Mənə elə gəlir ki, o, özünü hakimiyyətpərəst kimi göstərir. Ona görə də o, hələ hakimiyyətdə qalacaq. Paşinyan öz fəaliyyəti ilə Qarabağ erməniləri ilə Ermənistan erməniləri arasında olan ziddiyyətləri daha da dərinləşdirəcək. Bu böhran ki var, fikrimcə, ciddi nəticələrə gətirib çıxaracaq. 30 il bundan qabaq bəyan etdikləri "miatsum" əslində bunları birləşdirmədi, əksinə, düşmən elədi. Hər halda çox maraqlı nəticədir.

***- Ermənistanın MDB məkanında təcrid vəziyyətinə düşməsinin Qarabağ məsələsində bizimçün ciddi nəticə verəcəyinə ümid bəsləmək olarmı?***

- Təbii ki. Mən nəyə görə əminəm ki, bu, gec-tez öz nəticəsini verəcək? Çünki Ermənistanın Azərbaycana qarşı sərt, anneksionist siyasətinin mənbəyi heç də onun daxili imkanları deyil. Onun imkanları sadəcə olaraq Rusiya tərəfindən vəd edilən təhlükəsizlik qarantiyalarıdır. Rusiya bu vədinə əməl edəcək, yoxsa etməyəcək, bu məsələ də sual altındadır. Mən həmişə o fikirdə olmuşam ki, Rusiya Ermənistana dəstək verməyəcək. Rusiyanın vədi olmasa, Ermənistanın öz imkanları Azərbaycanla bu cür siyasəti aparması heç bir gün də çəkməz. Bu baxımdan əminəm ki, indiki proseslər gec-tez Ermənistanı böhrana gətirib çıxara bilər. Azərbaycan həm postsovet məkanında, həm iqtisadi, həm hərbi baxımdan təzyiqi gücləndirir. Hesab edirəm ki, ABŞ istiqamətində də Ermənistanın böhranla üzləşdiyi görünür...

***- Tofiq bəy, Azərbaycan prezidentinin postsovet məkanındakı digər ölkəyə - Türkmənistana səfərini necə dəyərləndirirsiniz?***

- Türkmənistan səfərində əsas diqqətçəkən mövzu təbii qazın nəqli ilə bağlıdır. Aşqabad bu müddət ərzində çətin bir müttəfiq idi. Amma hiss olunur ki, indi həm Türkmənistan, həm də Azərbaycan bir-birini çox yüksək səviyyədə başa düşür. Yeni qarşılıqlı səfərlər baş verir və s. Ümumilikdə vəziyyət dəyişib, Xəzər dənizinin statusunda irəliləyiş olub. O da öz müsbət nəticəsini verib. İllərlə Transxəzər boru kəməri layihəsinin üstündə maraqlar mövcud idi, mübahisələr, ziddiyyətlər var idi. Amma indiki şəraitdə hiss olunur ki, bu məsələyə aid ziddiyyətlər keçmişdə qalıb. Çünki qaz-nəqli sistemi sovet dövründə elə qoyulub ki, Türkmənistan qazı birbaşa Rusiyadan nəql olunur. İndi isə bildiyim qədər Rusiyaya ixrac azalıb və əsas ixrac ünvanı Çindir. Pekin böyük sərmayə qoyub və qaz kəmərini Çinəcən uzadıb. Bu gün Türkmənistanın ən böyük ixrac portnoyoru Çindir. Rusiyanın bu mövzu ilə bağlı ziddiyyətli mövqeyi ki, var idi, fikrimcə, artıq bununla bağlı əsaslar azalıb. Demək olmaz ki, yoxdur, amma əsaslar azalıb. Hesab edirəm ki, indi Türkmənistan da öz ixracını diversifikasiya eləməyə maraqlıdır. Azərbaycan prezidenti bu məsələyə aid maraqlı bir fikir səsləndirib. Deyib ki, əsas maraq Türkmənistandan olmalıdır ki, onlar bu məsələyə daha böyük diqqət yetirsinlər. Hər halda Türkmənistanın TAP və TANAP layihələrinə qoşulması məsələsi müzakirə olunandır. Hesab edirəm ki, bu məsələ mütləq müzakirə olunacaq. Təbii ki, bir sıra amilləri nəzərə alsaq, türkmən xalqı, onun tarixi, ənənəsi, dili bizim xalqımıza çox yaxındır. Əlaqələrin inkişafı üçün də böyük imkanlar mövcuddur. Hesab edirəm ki, bu səfər bu əlaqələrin inkişafına birmənalı olaraq öz töhfəsini verəcək.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Ölkədə növbəti prezident seçkilərinin tarixi açıqlandı

**Seçki Məcəlləsinə dəyişiklik təklif edilir. Modern.az-ın məlumatına görə, prezident İlham Əliyevin imzası ilə Milli Məclisə daxil olan qanunvericilik layihəsində qeyd edilir ki, Konstitusiyanın 101-ci maddəsinin I hissəsi, 105-ci maddəsinin I hissəsi və Seçki Məcəlləsinin 178.1-ci maddəsi arasında ziddiyyət mövcuddur.**

Belə ki, növbədənkənar prezident seçkilərində seçilmiş prezidentin səlahiyyət müddəti oktyabr ayında yox, 7 il əvvəl Prezident seçildiyi ayda (yəni növbədənkənar seçkilərin keçirildiyi 11 aprelə) bitir.

Ziddiyyətin aradan qaldırılması məqsədi ilə Seçki Məcəlləsində 178.1-ci maddənin yeni redaksiyada verilməsi təklif edilir.

Təklifə əsasən, Seçki Məcəlləsinin 179.2-ci maddəsində müəyyən edilmiş qaydada seçkilərin təyin olunması halları istisna olmaqla, 7 il əvvəl keçirilən Prezident seçkilərində Prezidentin seçildiyi səsvermənin keçirildiyi ayın ikinci həftəsinin çərşənbə gününə Prezident seçkiləri təyin olunur (indiki halda növbəti Prezident seçkiləri 9 aprel 2025-ci ildə təyin olunmalıdır).

Qeyd edək ki, Seçki Məcəlləsinə əsasən, seçkilərin keçirilməsi günü Mərkəzi Seçki Komissiyasının qərarı ilə təyin edilir.

**Seçki Məcəlləsinə təklif edilən dəyişikliyin noyabrın 27-də Milli Məclisin plenar iclasının müzakirəsinə çıxarılacağı bildirilir.**

# Avropa İttifaqının Azərbaycana qarşı böyük ayıbı

## Gələn ay Tiflisdə keçiriləcək Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumuna niyə Bakıdan heç kim dəvət edilməyib?; rəsmi Bakıdan etirazlar

**10-12 dekabrda Tiflisdə Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun onuncu illik Məclisi keçiriləcək. Virtualaz.org bildirir ki, bu barədə Forumun saytı məlumat yayıb.**

Xatırladaq, Şərq Tərəfdaşlığı Aİ-nin altı postsovet ölkəsi-Azərbaycan, Ermənistan, Belarus, Ukrayna, Moldova və Gürcüstanla Avropa İttifaqının inteqrasiya əlaqələrinin inkişafı üçün yaradılmış xüsusi layihədir.

"Şərq Tərəfdaşlığı" himayəsi altında keçiriləcək tədbirə isə Azərbaycan hökumətinin nümayəndələri dəvət edilməyib. Halbuki **"Şərq Tərəfdaşlığı"nda dəyişikliklər vaxtı: biz öhdəsindən gəlirikmi?"** mövzusunda müzakirələrdə Ukrayna baş nazirinin müavini İvannı Klimpuş-Sintsadzenin, Moldova baş nazirinin müavini Yuri Lyankenin, Belarus xarici işlər nazirinin müavini Oleq Kravçenkonun və Ermənistan xarici işlər naziri səlahiyyətlərinin müvəqqəti icraçısı Zohrab Mnatsakanyanın çıxışları nəzərdə tutulub.

Brüsseldəki diplomatik mənbələr virtualaz.org-a bildiriblər ki, Avropa İttifaqı qərara alınıb ki, rəsmi Bakının iştirakı Azərbaycanın Gürcüstandakı səfirliyinin nümayəndəsi formatında məhdudlaşdırılsın. Bundan başqa, Azərbaycan diplomatı iclasda müşahidəçi statusunda iştirak edəcək.

Diplomatik mənbələrin təsdiq etdiyinə görə, iclasda fəxri qonaq kimi Ermənistan hökumətinin başçısı Nikol Paşinyan iştirak edəcək. Avropa İttifaqı erməni baş nazirini 11 dekabr müzakirələrində iştirak etməyə dəvət edib. Maraqlıdır ki, erməni baş nazirinin Məclisin işinə cəlb edilməsi Ermənistanda parlament seçkilərinin başa çatmasından sonrakı növbəti günə düşür və ehtimal ki, N.Paşinyan ona verilmiş bu platformadan öz ölkəsində demokratik dəyərlərin qələbəsinin elanı üçün istifadə edəcək.



**Ehtimal ki, söhbət Məclis iştirakçılarının mühakiməsinə veriləcək Yekun bəyannamə layihəsindən gedir. Bəyannamə layihəsində Ukraynanın və Gürcüstanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının tanınması Rusiyanın "işğalçılıq siyasəti" kontekstində ifadə edilir, amma orada Avropa ictimaiyyətinin Azərbaycanın bütövlüyünə və Qarabağ münaqişəsinin nəticələrinə münasibətini ifadə edən eyni fikir yoxdur.**

Xatırladaq ki, Məclisin əvvəlki illərdəki yekun sənədlərində "Şərq Tərəfdaşlığı" layihəsində iştirak edən bütün dövlətlərin ərazi bütövlüyünə mütləq dəstək ifadə edilirdi.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifələrini icra edən Leyla Abdullayeva bildirib ki, məsələ Azərbaycanın Avropa İttifaqı yanındakı nümayəndəliyi tərəfindən araşdırılır: "Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumuna Azərbaycanın rəsmi nümayəndələrinin dəvət olunmaması faktı öz təsdiqini taparsa, bu, əlbəttə ki, Şərq Tərəfdaşlığı üçün müsbət hal olmayacaqdır".

**Avronest Parlament Assambleyasının(PA) həmsədri Məlahət İbrahimqızı modern.az-a açıqlamasında məsələyə kəskin etirazını bildirib**: "Mətbuatdan oxudum ki, Tiflisdə Avropa İttifaqının(Aİ) Şərq Tərəfdaşlığı ölkələrində Vətəndaş Cəmiyyətinin vəziyyəti ilə bağlı böyük konfrans keçirir. Konfransda Şərq Tərəfdaşlığına üzv olan ölkələr, Ukraynanın yüksək səviyyəli rəsmiləri, Moldovanın və digər dövlətlərin rəsmi şəxsləri dəvət olunub. Təəssüfedicidir ki, Azərbaycan hökuməti bu konfransda təmsil edəcək yüksək rəsmi şəxs yoxdur. Ümumiyyətlə, Azərbaycan dəvət olunmayıb. Ancaq Azərbaycanın Gürcüstandakı səfirliyi Azərbaycanı təmsil etmək üçün dəvət olunub. Bu da ancaq səfirliyimizin müşahidəçi qismində iştirakı kimi nəzərdə tutulub. Bu, həqiqətən də ədalətsiz, ikili standartlara dayanmış qərəzli yanaşmadır".

M.İbrahimqızı Şərq Tərəfdaşlığı ölkələrində Azərbaycanın ən çox töhfə verən ölkələrdən biri olduğunu vurğulayıb. "Azərbaycanın Avropa İttifaq ilə ən yüksək səviyyədə əməkdaşlığı var. Bu yaxınlarda möhtərəm prezidentimiz Brüsseldə olarkən görüşlər keçirib. Azərbaycan Avropa məkanında ən önəmli dövlətlərdən, enerji təhlükəsizliyində aparıcı ölkələrdən biridir. Bu baxımdan Azərbaycan 10-dan çox ölkənin strateji müttəfiqidir. Qeyd etdiyim kimi Şərq Tərəfdaşlığı çərçivəsində də Azərbaycan önəmli ölkələrdən biridir. Hesab edirəm ki, Azərbaycana bu formada yanaşma tam qərəzlidir. Görünür, burada da ermənipərəst qüvvələr daha çox fəallıq göstəriblər. Həmsədr kimi bu cür yanaşmanı qınayaraq etirazımı bildirirəm".

**Assambleyanın xanım həmsədri Azərbaycana qarşı bu cür yanaşmaya inana bilmədiyini də istisna etməyib: "Konfrans dekabrın 10-12-dədir. Bəlkə də dəvət olacaq. Ancaq adətən belə tədbirlərdə rəsmi dəvətnamələr xeyli öncədən göndərilir. Hələ də inana bilmirəm ki, belə yanaşma ola bilər.**

**❑ Hazırladı:**
**Etibar SEYİDAĞA**

# Abel Məhərrəmov varidatını YAP-ın kölgəsində qorumağa çalışır

## Sabiq rektorun nələri var, nələri: restoranlar, şadlıq evləri, villalar və bahalı maşın kolleksiyası...






**Bakı Dövlət Universitetinin (BDU) rektoru Abel Məhərrəmovun İspaniyadakı böyük qalmaqaldan sonra işdən çıxarılması gündəmdən düşmür. Günlərlə baş verənlərə aydınlıq gətirməyən sabiq rektor YAP-ın 21 noyabrda keçirilən tədbirində üzə çıxıb. Mətbuata danışsa da, Madrid səfəri, oradakı qalmaqallı olayın üzərindən sükutla keçib. Bilinən odur ki, Abel Məhərrəmov məhz siyasi rəhbərliyi qəzəbləndirdiyi üçün vəzifəsindən azad olunub.**

YAP-ın tədbirinə qatılan sabiq rektorun Fəxri Xiyabanda tək fotosu yayılıb. Adətən YAP-ın tədbirlərində yuxarı başa çıxarılan sabiq rektorun tənha fotosu daha geniş müzakirələrə meydan açıb. "AzPolitika.info"nun məlumatına görə, YAP rəhbərliyinin H.Əliyevin məzarını ziyarət etməsi zamanı son günlərin "qəhrəmanı" - YAP Siyasi Şurasının üzvü Abel Məhərrəmov ziyarəti partiya rəhbərliyi ilə birlikdə yox, tək həyata keçirib. Burdan belə nəticə çıxarmaq olar ki, A.Məhərrəmov təkcə vəzifəsini itirməyib, eyni zamanda rəhbərliyində təmsil olunduğu hakim partiyada arzuolunmaz şəxsə də çevrilib. Ona görə də YAP rəhbərliyi ilə birlikdə H.Əliyevin məzarını ziyarət etməsinə, yeni rəhbərliklə bir sırada görünmüsinə icazə verməyiblər.

Azərbaycanda son illərdə formalaşmış ənənəyə görə isə "vurulan" məmurlara qarşı tətbiq olunan əsas cəza onların vəzifədə olarkən əldə etdikləri var-dövlətin - daşınar və daşınmaz əmlakların, nağd pul vəsaitlərinin əllərindən alınmasıdır. Bu ənənənin Abel Məhərrəmova münasibətdə də aktuallığını qoruyacağı ehtimalı xeyli yüksəkdir. Belə olacağı halda bu "elm fədaisinin" itirəcəkləri isə heç də az deyil - illərdir məlum olan və yeni üzə çıxan məlumatlar dəyəri on milyonlarla ölçülən əmlaklardan xəbər verir.

Artıq saytlarda, sosial şəbəkələrdə Abel Məhərrəmova məxsus olduğu iddia olunan əmlakların siyahısı da yayılmağa başlayıb. Bu siyahı ilə tanışlıqdan belə məlum olur ki, hörmətli rektorumuz əməlli-başlı villabaz olub. Təkcə Bakı şəhərində 6-sı olmaqla, ümumilikdə 10-dan artıq villası var.

Sosial və peşəkar mediada sabiq rektorun varidatı ilə bağlı bir neçə siyahı yayılıb.

**Həmin siyahını təqdim edirik**

1. **"El Faro Hotel"** Nabran Ailəvi İstirahət Mərkəzi - 200 hektar ərazidə 61 milyon manat dəyərində ölçülən istirahət mərkəzi. Qızı İzabellanın adına qeydiyyatdan keçib.

2. **"Mono Liza"** - Bakıda ən bahalı və məşhur şadlıq sarayıdır. Dəyəri 12 milyon manat civarında ölçülür.

3. **"İzabella"** - Bu şadlıq sarayı, Bakıda Elmlər Akademiyası Metrostansiyası yaxınlığında yerləşir, dəyəri 23 milyon manat civarındadır.

4. BDU-nun yaxınlığında **20-yə yaxın bufet və yeməkxanalar**ından ildə 1 milyon 200 min manat arenda pulu gəlir kimi götürülür.

5. Bakıda **11 müxtəlif ərazidə SPA salonlarından əldə olunan gəlirlər**. Hər birinin tikintisi üçün dəyər 4, yaxud 7 milyon manat civarında ölçülür.

6. "Sahil" ticarət mərkəzində ən bahalı **RAMSEY** mağaza

*7. A.Məhərrəmovun şəxsi avtomobil qarajında dünyanın ən müasir son model avtomobillərinin siyahısı:*

**1) "Lamborghini"**
**2) "Bentley Motors"**
**3) "Porsche Cayenne"**
**4) "Land Rover"**
**5) "Mercedes AMG" 6.5 motor (son model, zirehli, dəyəri 1 milyon 800 min manat avro dəyərində ölçülür)**
**6) "Audi Q7"**
**7) "Audi Q8" (Son model, qiyməti 450 min avro)**
**8 ) "Mercedes Gelandewagen" (Qiyməti 250 min avro)**
**9) "BMW X6" (Son model qiyməti 200 min avro)**
**10) "BMW Sedan 760" (Qiyməti 400 min avro)**

(Mənbə: Siyasi elmlər üzrə fəlsəfə doktoru, AMEA-nın əməkdaşı, dosent Şahin Bağırov)

Abel Məhərrəmova məxsus olduğu iddia olunan mülklərin siyahısı:

**1)** Binəqədidə "Vorovski" deyilən ərazidə 2 villası;
**2)** Quba rayonunda - 1 villası;
**3)** Xızı rayonunda - 1 villası;
**4)** Nabranda - 1 villası;
**5)** Şüvəlan qəsəbəsində - 1 villası;
**6)** Mərdəkan qəsəbəsində - 1 villası;
**7)** AMEA yaxınlığında yerləşən milyonerlər məhəlləsində - 1 villası;

Şərifzadə küç. 10 yerləşən evi.

- Qızı Nərminə Sadıqovaya məxsus "Qlobus" uşaq baxçası.
- 8-ci mikrorayonda daha bir restoranı
- Təkcə N.Nərimanov heykəlinin yanında mənzilinin dəyəri 1 milyon manatdan yüksəkdir.

**Abel Məhərrəmov 20 illik rektorluq dövrü onu ölkədəki gizli məmur-oliqarxlar sırasında ilk yerlərə çıxarıb. O isə YAP-ın kölgəsinə sığınmağa çalışır, amma belə görünür ki, ona burda da daha yer yoxdur...**

**❑ E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**




# "Bir də görəcəklər ki, obyektləri əldən çıxdı"- prezidentin sərt xəbərdarlığı gerçəkləşir

## Standartlara uyğun təmizləyici qurğuları olmayan restoranların bağlanması üçün məhkəməyə müraciət edildi; aralarında "Gilavar", "Oazis" və "Çanaqqala" kimi tanınmış obyektlər də var...




**"Müasir standartlara uyğun təmizləyici qurğuları olmayan, havanı çirkləndirən iaşə obyektlərinin sahiblərinə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən vaxtdan 6 ay keçməsinə baxmayaraq, bu günə kimi yalnız 90 obyektdə təmizləyici qurğu quraşdırılıb".**

Bu barədə modern.az-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) əməkdaşı Faiq Mütəllimov məlumat verib.

Onun sözlərinə görə, monitorinqlərin başlanıldığı tarixdən indiyədək xəbərdarlıqlara məhəl qoymayaraq, təmizləyici qurğu quraşdırmayan 64 obyekt cərimə olunub, cəriməni ödəməyən iaşə obyektlərinin fəaliyyətinin dayandırılması istiqamətində iş aparılır:

**"20 iaşə obyektinin** - "Yeddi Gözəl", "Sonalar Sonası", "Gilavar", "Oazis", "Çanaqqala", "Şahzadə", "Şəlalə", "Meqa Palas", "Kəndimiz", "Çıraq", "Qabırğa" və digərlərinin bağlanması üçün sənədlər məhkəməyə göndərilib. Hazırda daha 15 iaşə obyektinin - "Topqapı", "Ankara", "Mübarək", "Eliza", "Cratos Hall", "Qızıl balıq", "Şır-şır", "Meşəbəyi" və digərlərinin fəaliyyətinin dayandırılması üçün sənədlər məhkəməyə hazırlanır.

Həmin iaşə obyektlərinin sahiblərinin diqqətinə çatdırmaq istərdik ki, məhkəmənin qərarı əsasında fəaliyyətləri dayandırılacaq iaşə obyektlərinin yenidən fəaliyyət göstərməsi müvafiq prosedurlar baxımından heç də asan və tez olmayacaq. Onların fəaliyyətlərinin bərpasına ETSN tərəfindən aparılacaq monitorinqlərin və müsbət rəyin nəticəsindən asılı olaraq razılıq veriləcək.

Onu da qeyd edək ki, müvafiq təmizləyici qurğunun quraşdırılması məqsədilə müqavilə bağlayan, lakin ötən xeyli müddət ərzində bu istiqamətdə heç bir iş görməyən, atmosferi çirkləndirməkdə davam edərək əhalinin haqlı narazılığına səbəb olan iaşə obyektləri barəsində də cərimə tətbiq edilməklə yanaşı, onların fəaliyyətlərinin dayandırılması, daha ciddi cəza tədbirləri görülməsi üçün aidiyyəti orqanlar qarşısında vəsadət qaldırılacaq".

Musavat.com xatırladır ki, oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında prezident İlham Əliyev bu barədə sərt danışmışdı.

"Havanı çirkləndirən məişət obyektlərinə ciddi xəbərdarlıq edilib. Axsam saatlarında Bakı şəhərini tüstü bürüyür. Şadlıq evlərində tüstü təmizlənmədən havaya sovrulur. Ona görə, çox ciddi xəbərdarlıq edilib, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaq. Mən tapşırmışam ki, bunun üçün hüquqi əsaslar hazırlansın. Bildiyimə görə, birinci xəbərdarlıqdan sonra bir çox məişət obyektləri təmizləyici qurğuları quraşdırmağa başlayıblar. Onların hamısına məsləhətim ondan ibarətdir ki, bu işi tezləşdirsinlər. Çünki ikinci xəbərdarlıq olmayacaq, bir də görəcəklər ki, əldən çıxdı. Ona görə, tezliklə bütün böyük-kiçik məişət obyektlərində havanı çirkləndirən, havaya tüstü, kanserogen buraxan obyektlərdə təmizləyici qurğular quraşdırılmalıdır, müvafiq qurumlar monitorinq aparmalıdır. Mən Bakı Şəhər İcra Hakimiyyətinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verdim ki, mənə dərhal məlumat verilsin və dərhal ölçü götürüləcək".

Prezidentin müvafiq göstərişindən sonra ETSN tərəfindən Bakıda yerləşən 500-dən artıq irili-xırdalı restoran və kafelərə dərhal sözügedən qurğuların quraşdırılması tövsiyə edilib. Bir neçə gün əvvəl nazirlik 90 ictimai qidalanma müəssisəsində havatəmizləyən qurğular quraşdırıldığını, 2200-dək restoranın sahibi ilə zəruri avadanlığın qurşdırılması barədə müqavilə bağlandığını xəbər vermişdi.

Lakin Nazirliyin tövsiyələrini dinləmək istəməyən sahibkarlar da olub ki, ETSN aralarında xeyli gəlirli obyektlərin də olduğu 20 belə restoran və şadlıq evinin bağlanması ilə bağlı məhkəməyə üz tutub.

**Prezidentin sözügedən bəyanatından sonra bazara havatəmizləyici qurğunun quraşdırılmasını təklif edən bir neçə xarici şirkət daxil olub.** Məsələn, belə şirkətlərin biri Türkiyənin "Airplus" şirkətidir. Sputnik.az-ın xəbərinə görə, il ərzində şirkət Azərbaycanda 100-dək belə qurğu quraşdıra bilər. Həmin qurğu suyu yağdan və havanı tüstüdən tamamilə təmizləyə bilir. Yağ və tüstü tamamilə məhv edilir, təbiətə 98% təmiz hava və su buraxılır. Aparat yalnız təmizləyici funksiyanı yerinə yetirmir, eyni zamanda otaqda havanı soyutma və istiləşdirmə qabiliyyətinə də malikdir.

**Bu şirkətin 300 kvadratmetrlik obyekt üçün yığdığı havatəmizləyici qurğunun dəyəri təxminən 30 min avrodur. Amma Bakıda onun ucuz analoqları da var.**

❑ **ORXAN,**
**"Yeni Müsavat"**



# Tikinti daşı bahalaşdı - səbəb həbslərdir, yoxsa...

**Ekspert:** "Bu işlə məşğul olanlar bəzi karxanaların bağlanmasını fürsət bilib"

**Azərbaycanda son günlərdə bəzi tikinti materiallarının qiymətində artım müşahidə edilir. Xüsusilə də Tikinti (mişar) daşlarının (kubik) qiyməti az da olsa bahalaşıb. Belə ki, "Yeni Müsavat"a daxil olan məlumata görə, hazırda bazarda Qaradağ daşının qiyməti 45-47 qəpikdir.**

Daş bazarında çalışanlar hesab edirlər ki, bahalaşmaya son zamanlar karxanalara qarşı atılan addımlar da təsir göstərib. Belə ki, bəzi işbazlar bu prosesdən istifadə edib, qiymətləri qaldırırlar.

Ekspertlər hesab edirlər ki, 2015-ci illə müqayisədə tikinti sektorunda aktivlik nəzərə çarpır. Lakin məsələ burasındadır ki, hazırda Bakıda tikilən binalarda kubikdən çox az hallarda istifadə edilir. Bu xüsusda söyləmək olar ki, mişar daşına tələbat elə də artmayıb. Bəs qiymətlər nə üçün bahalaşıb?

Əvvəlcə yada salaq ki, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi daş karxanaları ilə bağlı 7 cinayət işi başlayıb.

ETSN-də Bakı ətrafında yerləşən 208 daş karxanasında monitorinq aparıblar. Monitorinqlər bitəndən sonra aşkarlanan pozuntularla bağlı 105 akt tərtib edib prokurorluğa göndərilib.

Əmlak Məsələləri Dövlət Komitəsindən isə bildirilib ki, müəssisələrdə istifadə olunan avadanlıqların mövcud texniki vəziyyəti təhlil edilib, onların fəaliyyətinin mövcud norma və standartlara uyğunluğu müəyyən olunub. Məlum olub ki, istifadə edilən avadanlıqların əksər hissəsi keçmiş sovetlər dövründə istismara verildiyindən, hazırda həmin qurğular müasir norma və qaydalara cavab vermir. Bu zaman karxana istifadəçilərinə yeni və müasir tələblərə cavab verən texnologiyalarla işləmələri və bu istiqamətdə fəaliyyətlərində idarəetmə üsullarının təkmilləşdirməsi tövsiyə edilib.

Bu ilin yay aylarında Bakının havasında qatı toz dumanı müşahidə olunurdu. Rəsmi məlumatlarda əvvəlcə bu dumanın digər ölkə ərazisindən gəldiyi bildirilsə də, sonrada məsələyə səbəb kimi karxanaların da adı hallandı.

Daş karxanalarının ətrafında yaşayan sakinlər də mövcud faktı təsdiq edərək bildirdilər ki, doğrudan da bəzi karxanalar müvafiq qurğuları quraşdırmayıb, ətraf mühiti çirkləndirməklə məşğuldurlar.

"Yeni Müsavat"a danışan **iqtisadçı Natiq Cəfərli** söyləyib ki, iqtisadiyyatın əsas tələblərinə uyğun olaraq, təklif azaldıqca, qiymət də qalxır: "Son zamanlar karxanaların kütləvi şəkildə bağlanması, bazara çıxarılan daşın həcmində azalmaya səbəb olub. Bu, artıq faktdır. Ona görə də qiymətlərdə müəyyən artım müşahidə edilir. Bu işlə məşğul olanlar bəzi karxanaların bağlanmasını fürsətə çevirib, qiymətləri süni şəkildə qaldırmaqda da maraqlıdırlar. Guya daş qıtlığı var kimi təsəvvür yaradaraq, qiymətlərin artmasına təkan verirlər. Karxanaların bağlanması da buna rəvac verir. Yaxşı olardı ki, karxanaları bağlamaqdansa, onların bütün standartlara uyğun şəkildə fəaliyyətlərinin davam etdirilməsi ilə bağlı yollar axtarılardı. Çünki orada onlarla insan çalışırdı və qeydiyyatsız da olsa iş yerləri yaradılırdı. Düşünürəm ki, əlaqədar dövlət strukturları bu məsələ ilə bağlı kompleks tədbirlər planı hazırlasalar, daha doğru olar. Karxanaların standartlara uyğun şəkildə işlədilməsinə imkan varsa, onların bu standartlara uyğun formada işlədilməsini təşkil etmək lazımdır".

**Ekspert bildirib ki, kubiklərdən ən çox özəl, fərdi yaşayış evlərinin və müxtəlif dövlət layihələri üzrə tikintilərdə istifadə olunur:** "Əsasən də regionlarda müəyyən obyektlərin tikintisində bu materiallardan istifadə edilir. Son zamanlar isə dövlət tərəfindən maliyyələşdirilən layihələrin həcmində artım müşahidə olunub. Gələn il bu, daha da artacaq. Nəticədə tələbatın artması da qiymətlərə təsir edən amillər sırasındadır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



# İşimiz düzəlir

Zamin HACI
zaminhaci@gmail.com

“Hər dərədə bir at öldürüb, baytar olub”
*(ata sözü)*

**Uşaqların zərərli informasiyalardan qorunması haqda qanun qüvvəyə minmişdir. Doğrusu, mən qanunu bir az oxudum, heç zad qanmadım. Örnək üçün, indi biz qəzetin üstündə harasa “12+”, “16+”, nə bilim, “6-” yazmalıyıqmı? Erotik məlumat, zorakılığın təbliğatı, nə bilim, intihar üsullarının göstərilməsi deyiləndə nə başa düşülür? “Əjdaha” ləqəbli aktyor basıb məktəb direktorunu döysə, mətbuat direktorun fənərli göz fotosunu çap etməlidirmi? Şagirdlər bunu görsələr təhsilimizin nüfuzu yerə düşərmi? Məktəbə gedən yolun üstündə dana kəlləsi asmaq məkruhdurmu, yoxsa haramdır?**

Yaxşı yadıma düşdü, bu yaxında bir qrup şagird gördüm, siqaret püskürdə-püskürdə gedirdilər. Bəzənsə biz görürük siqaret qutularının üstündə xərçəng xəstəliyinə düçar olmuş adamın ciyərinin fotosu verilibdir. Şagirdlər üçün belə şəkillər nə dərəcədə uyğundur? Yaxşı olmazmı məktəblilər üçün siqaretlərin qutusunda Nizami Gəncəvinin, Dəmir Gədəbəylinin, Zakir Fəxrinin, Rəşad Məcidin gözəl şeirlərindən misralar həkk edilsin?

Suallar çoxdur, əlaqədar orqanlar da, maşallah, çoxdur və inşallah, tezliklə bütün bu həlli vacib sosial məsələlərə əncam çəkilər. Sözgəlişi, oktyabr ayında Britaniyada intiharları önləmə naziri təyin edildi, bu, dünyada ilk belə nazir idi. Məncə, biz də bu təşəbbüsə qoşulub Qənirə xanımı nazir qoya bilərik. Yoxsa indi bəzi saytlara baxırsan, intihar eləməyin üsullarını xırdalıqlarına qədər göstərirlər. İnformasiya üçün bildirim ki, bəzi sivil dünya ölkələrində kimsə intihar edəndə bunu necə elədiyini yazmaq qadağandır. Qısaca “intihar elədi” yazırlar, vəssalam. Bizdə isə görürsən qaçangelinler.az saytında kiminsə özünü sabunlu ipdən asdığı, bundan qabaq siçan dərmanını sirkəyə qatıb sulfat turşusu ilə birgə içdiyi və İpək yolu körpüsündən tullandığı, yerə düşməyə az qalmış biləyini doğradığı və maşın altında qaldığı, sonda isə üstündən qatar keçdiyi bildirilir. Elə bil müxbir manyakdır, bütün bu təfərrüatları yazmaqdan həzz alır. (Açığı, mən özüm də özümdən bir az şübhələndim indicə). Bu qeydlərim jurnalistika fakültəsinə sənəd verməyə hazırlaşan sarıdimdik gənclərimiz üçün idi. Onlar belə yazmasınlar. İndi yazanlardan artıq əlimizi üzmüşük.

Yeni dövrün, yeni əsrin, üçüncü minilliyin tələblərinə uyğunlaşmalıyıq. Bu yaxında İnterpola az qalmışdı rus polisi sədr qoysunlar, o zaman yankilər çığır-bağır saldılar ki, Rusiyada cinayətkar rejimdir, rusu ora sədr qoymaq tülkünü toyuq fermasına müdir qoymaqla eynidir. Bənzətmə uğurlu seçilmişdi, elə bu əks-təbliğatın üzündən rus general Prokopçuk-u sədr seçmədilər. Ancaq bənzətmənin iki tərəfi vardı axı. Tülkü aydındır, bəs toyuqlar kimdir? Belə çıxır yankilər dünyada ədalət axtaran, hüququnu qorumaq istəyən (hesab edək guya İnterpol bu işlərlə məşğuldur - camaat gedib konsulluqda adam mişarlayırsa, nə İnterpolbazlıqdır?) adamları da toyuq sayır. Çıxır deyəndə, elə bu cürdür. Güclü olmalısan. Çağdaş dünyada gücün yoxdursa səni cücə kimi qızardıb plovun üstünə qoyacaqlar.

Bu mənada kənd təsərrüfatımızın, qeyri-neft sektorunun inkişafı bizi sevindirir. Təzəlikcə Kənd Təsərrüfatı Nazirliyindən bir dəstə cavan uşaq uca millətimizə gözaydınlığı verdilər, deyir hazırda qoyun ətinə tələbatımızı 100 faiz ödəyirik. Mal əti üzrə 90 faizə, toyuq əti üzrə də 100-ə çatdıracağıq. İnşallah. Qida çekistlərimiz də faydalı işləyirlər, mundar ətləri, qurdlu kartofları, çürük almaları vaxtında aşkar edib poliqonda məhvinə nail olurlar. Bir də idarədən bildirdilər ki, kənddə pambıq əkini sahəsini daha artırmaq fikrimiz yoxdur. Əlbəttə. Sahə artdıqca məsuliyyətsiz adamlar da görürdün özlərini orda-burda artistliyə vurdular, guya zəhərləniblər. Hökumətdən kompensasiya istəyirdilər.

Nazirliyin brifinqində pambıq məsələsinə verilən bir izahı isə mən çox bəyəndim. KTN Aqrar Tədqiqatlar Mərkəzinin direktor müavini Namiq Şalbuzov bildirdi ki, indi biz pambığı əkirik, onu yığıb mahlıc emal etməyə zavodlarımız vardır. Ancaq mahlıcı ipliyə, ipliyi parçaya, parçanı paltara çevirmək işində zəifik, potensial faktiki çox azdır. Bu saat dövlətin qarşısında duran əsas məsələ odur ki, pambığı mahlıca, mahlıcı ipliyə, ipliyi parçaya, parçanı paltara elə burda, özümüz çevirək. Düzü, bilmirəm buna mane olan kimdir, ancaq mən Bakıda dükandan “Puma” firmasının idman köynəyini almışam - Gürcüstanda istehsal olunmuşdu və deyəsən gürcülər heç pambıq əkmirlər.

**Qaldı izahatı niyə bəyənmişdim, onu da yazım. Çünki çox tanış gəlirdi. Düz tapmısınız, Molla Nəsrəddində bu proses var. Orda biri gəlir Molladan borcunu almağa, Molla çöllüyü göstərib deyir: “Bax, burdan qoyun sürüsü keçir. Onların yunu kollara ilişib qalır. Mən o yunları yığacağam, əyirib ip düzəldəcəyəm, ipdən corab toxuyub bazarda satacağam, sənin pulunu qaytaracağam”. Adam əsəbdən dəli olur, başlayır buna gülməyə, Molla deyir: “Hə, aşna, deyəsən işin düzəlib, gülürsən”.**




# Dilqəm və Şahbazın qurtuluşu yaxınlaşır - İrəvan dilemma ilə üz-üzə

## Bakının “Hamını hamıya dəyişmək” təklifi işğalçı ölkəni qarışdırıb; Paşinyana daxili təzyiqlər artır; **erməni portalı:** “Ölən öldü, heç olmasa, əsirlikdəki erməniləri xilas edək...”

**Təxminən 5 ay öncə Azərbaycan ərazisində ələ keçmiş erməni diversant Karen Kazaryanın məhkəməsi davam edir. Bir neçə gün öncə onun həmkəndliləri - Tavuş rayonun Berdavan kəndinin sakinləri hakimiyyətdən onun geri qaytarılmasından ötrü hərəkətə keçməsi üçün etiraz aksiyası keçirib, ərazidən keçən strateji əhəmiyyətli avtomobil yolunu bağlayıblar.**

**“Yeni Müsavat” xatırladır ki, aksiya məhz Bakının az öncə bütün əsir və girovları “hamını hamıya” prinsipi əsasında dəyişmək təklifi verməsindən bir qədər sonraya təsadüf edib. Yerli sakinlər hökuməti bu şansdan yararlanıb öz vətəndaşlarını geri qaytarmaq üçün real addım atmağa çağırıblar.**

Lakin məlumdur ki, baş nazir əvəzi Nikol Paşinyanın aksiyaya reaksiyası neqativ olub. Ermənistan rəhbəri Kazaryanın, eləcə də Azərbaycan ərazisində saxlanan digər iki erməni diversant - Zaven Karapetyan və Arsen Baqdasarovun bu yolla geri qaytarılmasının mümkünsüz olduğunu bildirmişdi. O, Xankəndində qanunsuz şəkildə mühakimə edilmiş Dilqəm Əsgərov və Şahbaz Quliyevə nəzərdə tutaraq, söyləmişdi: “İstəyirsiniz ki, Azərbaycan daha iki Ramil Səfərov qazansın?” (Ermənistanda daha bir vətəndaşımız girov saxlanılır - Elnur Hüseynzadə)

Paşinyan eyni zamanda, guya Diqləmin öldürdüyü erməni gəncin ailəsini nişan verərək demişdi: “Siz heç o ailədən soruşmusunuzmu, onlar buna razıdılarmı?”

*****

Təbii ki, Paşinyan seçkiöncəsi özünün hakimiyyət maraqlarından çıxış edərək belə deyir, blef edir. Hər halda, öz ata-baba yurdlarını ziyarət etməyə gedərkən tutulan və dözülməz işgəncələrə məruz qalan Dilqəm və Şahbazla bağlı işğal edilmiş ərazidə keçirilmiş saxta və qeyri-legitim “məhkəmə”nin çıxardığı hökm heç bir normal hüquqşünas tərəfindən ciddi qəbul oluna bilməz.

**Bu məsələdə yeganə, ən böyük cinayət tərəfi, suç yiyəsi varsa, o da şübhəsiz ki, işğalçı rejimdir. Aydındır ki, işğal olmasaydı, bu hadisə də olmaz, hətta iddia edildiyi kimi, erməni gəncin ölümü da baş verməzdi. Məsələ bu dərəcədə bəsit.**

Lakin “ox” artıq “yay”dan çıxıb. Sadə ermənilər Bakının ədalətli təklifini fürsət kimi qiymətləndirərək, hökumətə təzyiq etməyə başlayıblar. Bu da Azərbaycanın uğuru sayıla bilər. Artıq baş nazir əvəzi Nikol Paşinyan qeyri-standart vəziyyətlə üzləşib. Xalqın adamı olduğunu iddia edən Paşinyan hər necə olmasa, öz xalqının tələbinə gec-tez, adekvat cavab verməklə zorundadır. Odur ki, Dilqəm və Şahbazın qaytarılması yönündə unikal bir şansın yarandığını söyləmək mümkündür.

*****

Bu xüsusda erməni portalı armenianreport-da getmiş dünənki redaksiya məqaləsi də diqqət çəkir. “Yeni Müsavat”ın məlumatına görə, sayt bir sıra qərəzli yanaşmalara rəğmən, Karen Kazaryanın Ermənistana qaytarılması üçün keçirilən aksiyaya dəstək verib. Başqa sözlə, əsir və girovlarla bağlı Bakının “hamını hamıya” prinsipi ilə dəyişmək təklifini, faktiki, müdafiə edib.

**Məqalədə deyilir:** “Bəli, Kazaryan əsgər deyil (əslində diversantdır - ”YM”). O, adi kənd sakinidir. Ancaq məgər bu reallıqla onun həyatının qiyməti azalır? Məgər o, dövlətin onun üçün axıradək mübarizə aparmasına layiq deyil? Kimsə etiraz edə bilər ki, bəs onda biz Şahbaz və Dilqəmin “öldürdüyü” (dırnaqlar bizimdir - “YM”.) gəncin doğmalarının gözünə necə baxarıq? Cavab veririk - bilmirik. Amma axı ölənin artıq geri qaytarmaq mümkün deyil. Bizim sağ həmvətənimizi isə əsirlikdə öldürə bilərlər. Çinari kəndinin sakini Karen Petrosyanın (başqa bir erməni diversantı - “YM”.) başına gələnləri yada salın. Əfsus ki, əvvəlki rejimlər üçün sıravi erməninin həyatı qara qəpiklik dəyərdə olmayıb. Bəlkə indiki hakimiyyət hamıya sübut eləsin ki, artıq hər şey dəyişib və hər bir vətəndaşın həyatı onun üçün qiymətsizdir? Bəlkə nəhayət, əsirlərlə bağlı çətin, lakin taleyüklü qərar versin və hamımızda ümid yaransın ki, bizim ölkəmiz qəliz duruma düşmüş vətəndaşının xilası üçün mümkün olan və olmayan hər şeyi edəcək...”

Beləcə, Ermənistanda Bakının “hamını hamıya” dəyişmək təklifinin tərəfdarları çoxalır. Prosesə artıq media ciddi təbliğati dəstək verməyə başlayıb. Bu, əlbəttə ki, erməni cəmiyyətində özünü göstərən yeni ovqatdan, yeni bir tendensiyadan xəbər verir - özü də indiki hökumətin xeyrinə olmayan bir tendensiyadan.

*****

“Biz sərhəddə ələ keçirdiyimiz erməni diversantların sayını artırmalıyıq. Yeni əsirlər Paşinyana ölkə daxilində təzyiqin artması deməkdir. Əsirlərin dəyişdirilməsi mövzusu Paşinyana ciddi təzyiq alətidir və bu alətdən Azərbaycan istifadə etməlidir”. Bunu **politoloq Elxan Şahinoğlu** söyləyib.

Politoloq da təsdiqləyir ki, erməni sakinlər əslində keçirdikləri aksiya ilə Azərbaycanın irəli sürdüyü “bütün əsirləri dəyişək” prinsipinə dəstək veriblər. “Paşinyan hələ ki müqavimət göstərir. Ermənistan baş nazir əvəzi bildirir ki, Dağlıq Qarabağdakı iki girovu Azərbaycana qaytarsa, Ramil Səfərov olayı təkrarlanacaq. Yəni anlatmaq istəyir ki, iki girovumuz Bakıda qəhrəman kimi qarşılanacaq. O tam haqlıdır. İki girovumuz Ramil Səfərov kimi qarşılanacaq. Buna haqları da çatır. Bu qarşılanma isə Ermənistanda etirazla qarşılanacaq və müxalifət Paşinyana ciddi suallar ünvanlayacaq”, - deyə o qeyd edib.

Politoloqun sözlərinə görə, Paşinyan da elə bundan ehtiyat edir: “Ancaq o, Azərbaycanda həbsdə saxlanılan erməni diversantların qohumlarına da nəsə deməlidir”.

**Məsələ də bundadır. Axı, sələflərindən fərqli olaraq, Paşinyan özünü “xalqın baş naziri” hesab edir. Görək, üzləşdiyi daha bir qəliz tənliyi o, necə həll edəcək...**

**❑ Siyasət şöbəsi, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 250 (7139) 23 noyabr 2018

**Məni dostluğundan çıxartdı.**
**İlqar Məmmədovun türmədən çıxandan bəri ən böyük ictimai-siyasi addımı budur.**
**Zati-möhtərəm haqqımda bu cümləni ifadə edib: "İlham Əliyevdən orden-medal almış bütün siyasi şəxsləri sosial şəbəkədə friend siyahımdan çıxarıram. Rauf Arifoğludan başladım, "Yeni Müsavat" qəzetinin redaktorundan. Friendlərdən beləlləri varsa və mən hələ bilmirəmsə, bir zəhmət, özləri çıxsın".**

**Rauf ARİFOĞLU**

# Camaat ondan nə gözləyirdi, o nə etdi...



**Bu adamdan heç zaman normal bir şey gözləməmişəm. AMİP-də olanda da, sonra da. Adam bir siyasi ipləmədir. Onurğası sındırılmış, təəhhüd götürərək, siyasətdəki daha yekə Məmmədovun öhdəliyinə buraxılmış birisindən nə gözləmək olardı ki...**

Amma məntiq və faktla baxdıqda, İlqar Məmmədov təmizləmə işinə türmədən çıxan kimi başlamalı idi. Və məndən, Facebook dostluğunda olan "medalçılar"dan deyil, ən yaxınında olanlardan, ona gerçəkdən və hərmənalı xəyanət edənlərdən... Onlara kameralar önündə sarılanda, mən onsuz da ona qiymət biçmişdim...

Onun üstündə haqqımız var. 5 il 6 ay ərzində "Yeni Müsavat" Allahın hər günündə ona dəstək oldu. Müxbirlərimiz, redaktorlarımız dəfələrlə Şəkiyə qədər, məhkəmələrinə gediblər. Ona xəyanət edən yaxınlarının acısını yaşadığı o əzablı günlərdə, hansında ki, məlumatları yeni almışdı və canı-ruhu acıyırdı, biz onun adını və əlini buraxmadıq. Əməkdaşımız Cavanşir Abbaslı mənim tapşırığımla bu illər ərzində hər gün onunla bağlı xəbər və müdafiə mətnləri hazırladı. Mən də bəzi müqavimətlərə, təhlükə və xəbərdarlıqlara baxmayaraq, israrla və son günə qədər onu müdafiə etdim.



Beləyəm. Darda olana hər zaman əl uzadaram, dayaq və dəstək olaram. Reklam etmədən, yaymadan, qarşıdakını əzmədən. Bir Allah bilsin, o da yetər.

Məsələn, Əli Kərimli bu yaxınlarda həbs olundu. İçəridən çıxana qədər, kənardan nə qədər yazı göndərilsə də, nə qədər qaralayıcı məlumatlar ötürülsə də, bir sətir də buraxmadım. Anbaan xəbərlərini yaydım. Bir cümlə də onu aşağılaya biləcək, ya da işini zorlaşdıracaq ifadə işlətmədim. Həbsini də doğru bulmadım və fikirlərimi gərəkən yerlərə söylədim. Yalnız çıxandan sonra deputat Elşən Musayevin (redaksiyanın deyil) bir yazısını buraxdım. Çünki daha darda deyildi, həyatına və azadlığına təhlükə yox idi. Üstəlik, adam o qədər kinli, o qədər qeyri-adekvat və Allahsızdır ki, onsuz da belə jestləri anlayacaq, dəyərləndirəcək halda da deyil. Bunlara nə geniş, bütün ölkəni əhatə edəcək ağıl, nə də zəka var...

İlqar Məmmədov Əli Kərimlinin yanındakı virtual militanlardan biri kimi şeydi. Zəka qohumudurlar bunlar. Danışarlar, özlərini qızışdırarlar, qaz verərlər bir-birinə, sonra da "gəlirik" moduna girib, oradan heç çıxa bilməzlər.

Və İlqar Məmmədov həbsdən çıxanda Cavanşir yenə onun yanındaydı. İlqar və Xanımı ona və qəzetə minnətdarlıq edib, üstəlik eksklüziv müsahibə də verib. Onlar hamısı arxivimizdə qalır.

Aylar keçib, Bəy birdən-birə "feys"ini təmizləməyə qərar verib. İlk ağlına gələn də Rauf Arifoğlu olub. "Feys"ini pis göstərirəmmiş...

"Feys"in qara olsun, buynuzun qırılsın, sənin ağlını balla yesinlər, İlqar! Səni Allah silib, cəzanı da ömürlük kəsib. Heyfini məndən niyə çıxırsan ki?

**Məşhur lətifədə deyildiyi kimi, axı mən "heç orda olmamışam...".**

# Ramiz Mehdiyev Moskvada mühüm tədbirə qatıldı

## Təhlükəsizlik şuraları katiblərinin görüşündə MDB məkanının təhlükəsizliyi məsələsi müzakirə edilib



**Noyabrın 21-də Moskvada MDB dövlətləri təhlükəsizlik şuraları katiblərinin VI görüşü keçirilib. AZƏRTAC-ın məlumatına görə, iclasda Azərbaycanı Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov təmsil edib.**

Təhlükəsizlik şuralarının katibləri terrorçuluq fəaliyyətinin maliyyələşdirilməsinin qarşısının alınması, o cümlədən cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına qarşı mübarizə üzrə birgə işin istiqamətlərini müzakirə ediblər. Görüşün gündəliyinə MDB məkanında regional təhlükəsizliyin təmin edilməsi, təhlükəsizlik şuraları xətti ilə beynəlxalq əməkdaşlıq sahəsində digər aktual məsələlər də daxil edilib.

Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev görüşdə çıxış edərək deyib ki, gündəliyə MDB üzvü olan dövlətlər üçün ümumi xarakter daşıyan və qarşılıqlı maraq doğuran təhlükə və çağırışlarla bağlı problemlər daxildir.

Görüşdə MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev, KTMT-nin Baş katibi səlahiyyətlərini icra edən Valeri Semerikov, MDB üzvü olan dövlətlərin təhlükəsizlik şuralarının, nazirlik, idarə və elmi təşkilatlarının nümayəndələri iştirak edirlər.

Səfər çərçivəsində Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ilə görüş keçirib. Bu barədə Rusiya TŞ-nin mətbuat xidmətinin yaydığı məlumatda deyilir ki, görüş zamanı tərəflər iki ölkənin müxtəlif nazirlikləri və qurumları arasında qarşılıqlı fəaliyyət perspektivlərini, terrorizmə qarşı mübarizə məsələlərini, habelə Xəzərin hüquqi statusu ilə bağlı məsələləri müzakirə ediblər.

Siyasi ekspertlər hesab edir ki, MDB məkanında təhlükəsizliyə ən ciddi təhdidlərdən biri postsovet respublikalarındakı separatizm ocaqları, ərazi münaqişələridir.

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, MDB məkanında təhlükəsizliyə ən ciddi təhlükə Dağlıq Qarabağ münaqişəsi və postsovet məkanındakı ərazi konfliktlərinin hələ də həllini tapmaması sayıla bilər: "Dağlıq Qarabağ münaqişəsi, Gürcüstanın Abxaziya və Cənubi Osetiya problemi, Moldovada Dnestryanı problem, Ukraynada Krım və Donetsk problemlərini bütövlükdə və ya ayrı-ayrılıqda götürsək hər biri MDB və bütün postsovet məkanı üçün ən böyük təhlükələrdir. Bu ölkələr üçün əsas təhlükə mənbəyi məhz həll edilməmiş, dondurulmuş problemlərdir. Əlbəttə bizim üçün ən mühüm olanı Dağlıq Qarabağ məsələsidir. Azərbaycan dinc, sülhsevər siyasət yürüdən bir ölkədir, MDB məkanında təhlükəsizliyin yüz faiz təmin olunmasında, sülhdə maraqlıdır. Amma onun ərazisinin 20 faizini işğal ediblər. Bu işğala son qoymaq üçün MDB-nin də öz imkanlarını maksimum səfərbər etməsi MDB-nin özünə də lazımdır əslində. MDB-nin təhlükəsizliyi Dağlıq Qarabağ münaqişəsi kimi münaqişələrin həllindən xeyli dərəcədə asılıdır. Çünki bu cür münaqişə ocaqları özündə hər an bütün bölgəni böyük təhlükələrlə üz-üzə qoymaq riski daşıyır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Rusiyada Putinin varisləri müzakirə olunur - üç mübhəm isim

## Kreml rəhbəri daha prezident olmaq istəmir, yoxsa...

**Rusiyada prezident Vladimir Putinin populyarlığının azalmaqda olduğu barədə məlumatlar yayılmaqdadır. Rus siyasi təhlilçilər yazır ki, Putinin populyarlığına pensiya islahatları, ölkədə əhalinin sosial-iqtisadi vəziyyətinin getdikçə pisləşməsi mənfi təsir edib. Bəzi ekspertlər isə prezident Putinin populyarlığının aşağı düşməsini həmçinin vətəndaşların uzunmüddətli Putin hakimiyyətindən "doyduqları" ilə izah edirlər.**



Vladimir Putin

Hazırda politoloqlar post-Putin dövrünü analiz etməklə Rusiya liderinin varisinin kimliyini tapmağa cəhd göstərirlər.

Azpolitika.info-nun yazdığına görə, siyasi texnologiyalar mərkəzinin eksperti Aleksey Makarkin bildirib ki, mümkün ssenarilərdən biri 2021-ci ildə Dövlət Dumasına seçkilər öncəsi varisin yeni baş nazir təyin edilməsi və tədricən ona səlahiyyətlər verilməsidir. Makarkinin sözlərinə görə, Tula vilayətinin qubernatoru Aleksey Dyumin Putinin varisi olmağa ən şanslı fiqurdur.

Aleksandr Dyumin 1972-ci ilin avqustunda anadan olub, Federal Mühafizə Xidmətində işləyib. O, Putinin birinci və ikinci hakimiyyəti müddətində prezident mühafizəsində işləyib. Bundan sonra müdafiə nazirinin müavini vəzifəsində çalışıb. Nəticədə Putin onu Tula vilayəti qubernatoru təyin edib.

Siyasi İnformasiya Mərkəzinin direktoru Aleksey Muxin isə bildirib ki, Aleksandr Dyumindən başqa daha namizəd var: Bunlar Yaroslavl vilayətinin qubernatoru Dmitri Mironov, mülkü müdafiə işləri və fövqəladə vəziyyət üzrə nazir Yevgeni Ziniçevdir. Muxinin sözlərinə görə, bu üç namizəd beynəlxalq arenada tanınmır, amma Rusiya KİV-ləri onları uğurlu siyasətçilər kimi reklam etməyə başlayıb.

**Politoloq Elşən Mustafayev** bildirdi ki, Putinin özünə varis axtarması ilə bağlı deyilənlər inandırıcı deyil: "Putin varislə bağlı düşünə bilər, amma bu o demək deyil ki, ölkəyə rəhbərliyi kiməsə ötürmək istəyir. Görünən odur ki, Putinin həm yaşı, həm də sağlamlığı imkan verir ki, Rusiyanı hələ bir müddət idarə etsin. Lakin ağılsız adamlar özündən sonrakı varis barədə düşünmürlər. Yeni gələn adamın ölkənin siyasi kursuna yanaşmasından başlamış, özündən öncəkinin ailəsinə, yaxınlarına, bizneslərinə münasibəti Putin kimi dövlət başçılarını həmişə narahat edib. Odur ki, gələcəkdə belə problemlərin olmaması məqsədilə adətən bütün Putin tipli liderlər gizli şəkildə varislə bağlı planlar qurmağa çalışırlar. Belə planlar isə çox gizli şəkildə qurulur və çox vaxt heç kimin bundan xəbəri olmur və ya ən uzağı məhdud saylı insanlar məlumatlı olurlar. Belə fikirlərin blef kimi ortaya atılması iddiaları da ola bilər. Amma bu da inandırıcı deyil. Çünki bu blef Qərb dairələrinə hesablanmış addımdırsa belə, fikirlərə Qərb heç vaxt inanmaz. Qərbdə hamı yaxşı bilir ki, sağlamlığı imkan verənə qədər Putin Rusiyaya rəhbərliyi istənilən statusda həyata keçirdəcəkdir. Qərbi gələcəkdə varisin kim olacağı düşündürə bilər. Amma bu gün kimlərin adları bu yöndə çəkiləcəksə onlar birmənalı varis deyillər. Dediyim kimi, fiziki problemlərlə bağlı səbəblər ortada olmayacaqsa, Putin sonuna qədər Rusiyada liderliyi əlində saxlamağa çalışacaq. Zamanı gələndə ola bilsin ki, bu gün heç kimin ağlına belə, gəlməyən birisi üzə cıxacaq".

**Politoloq Məhəmməd Əsədullazadə** bildirdi ki, Rusiyanın iqtisadiyyatı ABŞ-ın tətbiq etdiyi sanksiyalar nəticəsində getdikcə ağır nəticələrə səbəb olur. Bu da ölkədə siyasi vəziyyətə ciddi mənfi təsir edən əsas amildir: "Putinin reytinqi əvvəlki illərə nisbətən aşağı düşüb. Bunun əsas səbəbi məhz sosial problemlərin getdikcə ağırlaşmasıdır. Bu da növbəti seçkilərdə Putini qayğılandıran əsas məsələdir. İqtisadi vəziyyətin ağırlaşması, rublun dollar nisbətində dəyərdən düşməsi seçkilər yaxınlaşdıqca, Rusiyada kütləvi narazılıqlar yarada bilər. Hesab edirəm ki, ABŞ başda olmaqla Qərb ölkələri Putinin növbəti dəfə hakimiyyətdə qalmasına imkan tanımamaq üçün sanksiyaları ağırlaşdıra bilər. Düşünürəm ki, Putin növbəti dəfə hakimiyyətdə qalması üçün çalışacaq. Varisə həqiqətən də ehtiyac olacaqsa, Yuri Uşakov, yaxud müdafiə naziri Sergey Şoyqu Putinin əsas varisləri sırasındadır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 250 (7139) 23 noyabr 2018

# Erməni ordusunda acınacaqlı durum - döyüş başlasa, ac-yalavac əsgərlər İrəvana doğru qaçacaq

## Ekspertlər düşmən ordusundakı fəlakətli durumdan danışdılar

**"Paşinyanın ordunu ərzaq təminatı ilə bağlı verdiyi açıqlama bir daha onu göstərir ki, iqtisadi cəhətdən vəziyyətin gərgin olması faktdır". Politoloq Arzu Nağıyev bu fikri Ermənistanın baş nazir əvəzi Nikol Paşinyanın ordudakı acınacaqlı durumu etiraf etməsi barədə "Yeni Müsavat"a açıqlamasında söylədi.**

Qeyd edək ki, N.Paşinyan orduda əsgərlər üçün verilən qidaların keyfiyyətindən narazılığını bildirib. Ermənistanın işğal altındakı Azərbaycan ərazilərində yerləşdirilən hərbçilərinin acınacaqlı vəziyyətdə xidmət keçmələri barədə ermənilərin özləri də dəfələrlə etiraf ediblər. 2018-ci ildə Ermənistan ordusunun Qarabağdakı itkilərin əksəriyyətini qeyri-döyüş itkiləri təşkil edir. Erməni ordusunda intiharlar, "dedovşina", zorlama kimi hallar geniş yayılıb və artıq adi hal alıb. Bir sıra hallarda erməni analar etirazlara qalxaraq övladlarının yad ölkənin əraziləri uğrunda ölməsinə qarşı çıxıblar. Ancaq təbii ki, onların mövqeyi heç nəyi həll etmir. Artıq ordudakı ağır vəziyyəti Paşinyan da etiraf edir.



**A.Nağıyevə görə, işğalçı orduda korrupsiya hallarının olması da vəziyyəti acınacaqlı edən səbəblərdəndir:** "Eyni zamanda, Paşinyan bu məsələdə işğal olunmuş ərazilərdə hərbi xidmət keçən oğlunu ilkin mənbə kimi göstərməklə məlumatın təkzibolunmaz olduğunu göstərmək istəyir". Ekspertin fikrincə, bütün bunlar da seçki öncəsi siyasi gedişlərdən biri kimi Paşinyanın istifadə edəcəyi bir variantdır: "O, həm Rusiyaya, həm də Qərbə məhz maddi cəhətdən zəiflədiklərini göstərir və bunun müqabilində dividentlər əldə etməyə çalışır. Təbii ki, döyüşən orduda əsas məsələlərdən biri məhz əsgər və zabitlərin ərzaqla təminatında problemlərin yaranmamasıdır, çünki bu məsələlər silahlı qiyama gətirib çıxara bilər. Bu, bir daha göstərir ki, Dağlıq Qarabağ münaqişəsi Ermənistan siyasətində ən mühüm amildir. Bu, gələcək çağırışçılarla, əsgər anaları ilə bağlı elektoratı narahat etməyə bilməz. Paşinyan da bundan istifadə etməyə çalışır və ordu rəhbərliyini də bu metodla nəzarətdə saxlayır".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** isə qəzetimizə dedi ki, Paşinyan bir neçə ciddi çağırışla üz-üzədir: "Bunlardan biri Ermənistan ordusundakı vəziyyətdir. Paşinyan özü də etiraf edir ki, ordunun ərzaq təchizatı yaxşı vəziyyətdə deyil. Bundan başqa Ermənistan ordusunda ölüm halları azalmır. Paşinyan bunun da qarşısını almaqda acizdir. Ermənistan gənclərini zorla Dağlıq Qarabağa "xidmətə" göndərirlər, onların bir hissəsi tabutda "geri qayıdır". Ona görə də Ermənistandakı ailələr övladlarını hərbi xidmətə göndərməmək üçün müxtəlif yollara baş vururlar. İndi isə Paşinyan üçün yeni problem yaranıb. Aprel savaşında iştirak edən ermənilər özlərini üçün xüsusi imtiyaz tələb edirlər və bu məqsədlə İrəvanın küçələrində etiraz yürüşləri həyata keçirirlər".

**E.Şahinoğlunun sözlərinə görə, N.Paşinyanın üzləşdiyi bir başqa çağırış girov və əsrlərin dəyişdirilməsiylə bağlıdır:** "Paşinyan hələ ki, müqavimət göstərir. Ermənistan baş naziri bildirir ki, Qarabağdakı iki girovu Azərbaycana qaytarsa Ramil Səfərov olayı təkrarlanacaq. Yəni Paşinyan demək istəyir ki, iki girovumuz Bakıda qəhrəman kimi qarşılanacaq. Paşinyan tam haqlıdır. Azərbaycanda iki girovumuz Ramil Səfərov kimi qarşılanacaq. Buna haqları da çatır. Bu qarşılanma isə Ermənistanda etirazla qarşılanacaq və müxalifət Paşinyana ciddi suallar ünvanlayacaq". Politoloq qeyd etdi ki, Paşinyan bundan ehtiyat edir: "Ancaq Paşinyan Azərbaycanda həbsdə saxlanılan erməni diversantlarının qohumlarına da nə isə deməlidir. Biz isə elə etməliyik ki, sərhəddə ələ keçirdiyimiz erməni diversantların sayını artıraq. Yeni əsirlər Paşinyana ölkə daxilində təzyiqin artması deməkdir. Əsirlərin dəyişdirilməsi mövzusu Paşinyana ciddi təzyiq alətidir və bu alətdən Azərbaycan istifadə etməlidir".

**Ermənistanın Qarabağ torpaqlarında xidmət keçən əsgərləri politoloqun dediyi kimi, əsirlərin sayını artırmağa imkan verir. Bir neçə dəfə düşmən ölkənin hərbçiləri və mülki şəxslər vəziyyətdən bezib Azərbaycan ərazisinə keçməyə cəhd göstərib, lakin onların qarşısı alınıb. Ermənistan ordusundakı acınacaqlı durum həm də ona işarədir ki, döyüşlər başlasa, ac-yalavac erməni əsgərləri İrəvana doğru qaçacaq. Aprel döyüşləri zamanı postdakı ermənilərin Ermənistana yol aldıqlarını elə erməni zabitlər etiraf etmişdilər. Onları son anda Kəlbəcərdən geri qaytarmışdılar...**

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# Azərbaycandakı əsir erməni diversantlar Paşinyanın başağrısına çevrilir

## Erməni baş nazir nədən əsirləri dəyişmək istəmir?

**Ermənistanın Berdavan kəndinin sakinləri baş nazir vəzifəsini müvəqqəti icra edən Nikol Paşinyana Azərbaycanda saxlanılan erməni kəşfiyyatçı Karen Kazaryanın azad edilməsi tələbi ilə keçirilən aksiyalarla bağlı yazılı müraciət ünvanlayıblar. Kənd sakinləri müraciətdə onları təhqir edən Paşinyan və hökumətindən üzr tələb ediblər.**



Qeyd edək ki, Ermənistanın Tavuş vilayətində yerləşən Berdavan şəhərinin sakinləri noyabrın 18-də yolu bağlayaraq, hakimiyyətdən 4 aydan bəri Azərbaycanda saxlanılan 34 yaşlı Karen Kazaryanın geri qaytarılmasını tələb ediblər. K. Kazaryanın anası deyib ki, onların etiraz aksiyası keçirməkdən başqa çarəsi yoxdur.

Noyabrın 19-da isə Berdavan sakinləri Gürcüstana gedən yolu bir neçə saat bağlı saxlayıblar. Habelə İrəvanda baş nazirin iqamətgahı qarşısında aksiya keçiriblər. Noyabrın 20-d isə jurnalistlərə verdiyi açıqlamasında Paşinyan Azərbaycanla sərhəddə yerləşən kənddə hökumətdən əsiri Azərbaycandan geri almaq, dəyişmək tələbi keçirilən aksiyalara mənfi münasibətini ortaya qoyub.

Paşinyan deyib ki, bu aksiyaların səbəbini anlamır: "Mənim arvadım iki dəfə Kazaryanın ailəsinə baş çəkib. Məsələ heç vaxt diqqətdən kənarda olmayıb. Lakin bu günlərdə keçirilən aksiyalar sual doğurur-bu aksiyalar kimə qarşı yönəlib? Əgər Azərbaycana qarşı yönəlibsə o zaman yolu bağlamaq nəyə lazım idi, hansı ki, Azərbaycanın strateji hədəflərindən biri bu yolun bağlanmasıdır. Əgər bizə qarşı yönəlibsə və hesab edirlərsə ki, problemə lazımi diqqət ayırmırıq, o zaman xatırladıram ki, arvadım iki dəfə ailəyə baş çəkib. Elə presedent olubmu ki, bu cür situasiyaya düşən ailəyə belə diqqət ayrılsın? Əgər söhbət ondan gedirsə ki, Ermənistan səyləri artırmalıdır, o zaman başa düşmək lazımdır ki, proses Ermənistanın maraqlarına cavab verəcəkmi? Yaxud tələb etmək olarmı ki, məsələ istənilən qiymətə həll edilsin və ictimaiyyətin buna necə yanaşacağı əhəmiyyət daşımasın? Bunlar sadə məsələlər deyil".

**Paşinyan qeyd edib ki, Azərbaycan tərəfi əsir və girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsini təklif edib.** "Biz buna getməliyikmi? Bəs biz öldürülənlərin ailəsindən soruşmuşuq?" - o Dağlıq Qarabağda girov saxlanılan Azərbaycan vətəndaşı Dilqəm Əsgərovu və Şahbaz Quliyevi xatırladaraq bildirib.

"Belə çıxır ki, Azərbaycana iki Ramil səfərov da qaytaraq? Kazaryanlar ailəsinin faciəsini başa düşürəm və anlayışla qarşılayıram. Amma birbaşa deyirəm - Gürcüstana gedən yolu bağlamaq mənə aydın deyil. Yəni nəsə edə bilərdik və bunu etməmişik?"-Paşinyan deyib.

Paşinyanın bu açıqlamaları Berdavanda etirazları daha da qızışdırıb. Erməni baş nazirin açıqlamaları onun Azərbaycan tərəfində saxlanılan üç erməni diversantı (Arsen Baqdasaryan, Zaven Karapetyan, Karen Kazaryan) azərbaycanlı əsir və girovlarla dəyişmək niyyətində olmadığı kimi qəbul edilib. Bu isə narazılıqları daha da artırıb.

*Bəs, Paşinyan əsirləri niyə dəyişmək istəmir?*

**Politoloq Elxan Şahinoğlu** bildirib ki, Ermənistanın baş naziri Nikol Paşinyan Dağlıq Qarabağdakı iki azərbaycanlı girov Dilqəm Əsgərovu və Şahbaz Quliyevi qaytarmaq istəmir: "Onun iddiasına görə iki girovumuz Dağlıq Qarabağda adam öldürüblər. Buna görə də Paşinyanın sözlərinə görə, İrəvan iki azərbaycanlı girovu Azərbaycanda həbsdə saxnanılan erməni diversantlarla dəyişmək istəmir. Ancaq Paşinyanın istəyindən asılı olmayaraq Azərbaycanda həbsdə olan ermənilərin qohumları son günlər Ermənistanda fəallaşıblar, ölkələri üçün strateji yolları kəsib etiraz edirlər. Onlar tələb edirlər ki, əsirlər dəyişdirilsin. Əslində onlar bununla Azərbaycanın irəli sürdüyü "hamının hamıya" prinsipinə dəstək verirlər.

Paşinyan hələ ki, müqavimət göstərir. Ermənistan baş naziri bildirir ki, Dağlıq Qarabağdakı iki girovu Azərbaycana qaytarsa Ramil Səfərov olayı təkrarlanacaq. Yəni Paşinyan demək istəyir ki, iki girovumuz Bakıda qəhrəman kimi qarşılanacaq. Həqiqətən də Azərbaycanda iki girovumuz Ramil Səfərov kimi qarşılanacaq. Buna haqları da çatır. Bu qarşılanma isə Ermənistanda etirazla qarşılanacaq və müxalifət Paşinyana ciddi suallar ünvanlayacaq. Paşinyan da bundan ehtiyat edir. Ancaq Paşinyan Azərbaycanda həbsdə saxlanılan erməni diversantların qohumlarına da nəsə deməlidir. Biz isə elə etməliyik ki, sərhəddə ələ keçirdiyimiz erməni diversantların sayını artıraq. Yeni əsirlər Paşinyana ölkə daxilində təzyiqin artması deməkdir. Əsirlərin dəyişdirilməsi mövzusu Paşinyana ciddi təzyiq alətidir və bu alətdən Azərbaycan istifadə etməlidir".

**Xatırladaq ki, diversant Karen Kazaryan bu il iyulun 15-də Azərbaycan tərəfinə keçərkən saxlanılıb. Noyabrın 20-də isə Gəncə Ağır Cinayətlər Məhkəməsində erməni diversant Karen Kazaryan üzərində baxış iclası keçirilib. Növbəti məhkəmə prosesi 27 noyabrda keçiriləcək.**

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 250 (7139) 23 noyabr 2018

# Bakıda yaşıllıqların məhvinə görə nazir müavininin qardaşı cəzalandırıldı

**Bakı Şəhər İcra Hakimiyyəti başçısı Eldar Əzizov Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinin baş direktoru Vaqif Novruzova şiddətli töhmət verib. Bu barədə virtualaz.org-a Bakı şəhər İcra Hakimiyyətinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İsrafil Kərimov bildirib.**

## BŞİH-in başçısı Eldar Əzizov Yaşıllaşdırma Təsərrüfatı Birliyinin baş direktoru Vaqif Novruzova niyə şiddətli töhmət verib?

E.Əzizovun sərəncamına əsasən Vaqif Novruzova sonuncu xəbərdarlıq edilməklə şiddətli töhmət elan olunub. Bildirilir ki, bu cəza tədbiri Bakı şəhərində yaşıllıqların vəziyyəti, o cümlədən parklara zəif qulluq göstərilməsi ilə əlaqəlidir. E.Əzizov tərəfindən bununla bağlı dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq vəziyyət dəyişməyib və nəticədə işində yol verdiyi ciddi nöqsanlara görə, Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinin baş direktoru Vaqif Novruzov barəsində tənbeh tədbiri görülüb.

İsrafil Kərimov bildirib ki, Vaqif Novruzovun konkret hansı faktlara görə cəzalandırıldığı haqda bilmir və bu haqda daha sonra danışa bilər. Lakin məlum olan budur ki, Eldar Əzizov Bakı şəhər İcra Hakimiyyətinin başçısı səlahiyyətlərini icra etməyə başlayandan sonra şəhər təsərrüfatının müxtəlif sahələrində hökm sürən vəziyyəti araşdırmaq üçün komissiyalar yaradıb. Və belə komissiyalardan biri də yaşıllaşdırma təsərrüfatı və yaşıllıqlarla bağlı vəziyyəti araşdırmaq tapşırığı alıb. Həmin komissiyanın rəyi əsasında Vaqif Novruzov cəzalandırılıb.



**Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinin baş direktoru Vaqif Novruzov**la əlaqə saxlamaq cəhdimiz isə alınmadı. Birliyin baş mühəndisi Cavanşir Məmmədov hazırda V.Novruzovun "ərazidə olduğunu" dedi.

Vaqif Novruzov Naxçıvan daxili işlər nazirinin müavini, general Səbuhi Novruzovun və Binəqədi rayonunun icra hakimiyyəti başçısının sabiq birinci müavini, həmin rayonda 2015-ci ildə yanan və azı 17 adamın ölümünə səbəb olan bina işinə görə həbs edilən Qəzənfər Novruzovun qardaşıdır.

2011-ci ildə isə Vaqif Novruzovla Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında mətbuatada açıq münaqişə yaranmışdı. Bu münaqişə nazirliyin Novruzovun idarəsini məhkəməyə verməsindən sonra başlayıb. Belə ki, nazirlik Yaşıllaşdırma Təsərrüfatı Birliyi ilə bağlı şikayətləri araşdırıb və bu idarəni cərimə edib. Cavab olaraq Vaqif Novruzov Ekologiya və Təbii Sərvətlər Nazirliyini "yaşıllaşdırma korrupsiyasında" günahlandırıb. O, mətbuata açıqlamasında ETSN-ni Rusiyadan bahalı qovaq tingləri almaqda ittiham etib. V.Novruzova görə, qonşu ölkələrdən alınan bu ağacların qiymətləri şişirdilməklə yanaşı həmin bitgilər özlərilə ölkəmizə müxtəlif xəstəliklər də gətirirlər.

**Nazirlik isə Vaqif Novruzovu "yalan, böhtan" yaymaqda günahlandırıb və onu məhkəməyə verəcəklərini açıqlayıb.** ETSN-dən həmin vaxt Vaqif Novruzovun ittihamlarına cavab olaraq bildirilmişdi ki, Bakıda təqribən 12 min hektarlıq yaşıllıq ərazisi üçün ayrılan vəsait, bütövlükdə Azərbaycanın 1,2 milyon hektarlıq meşə fonduna ayrılmış vəsaitdən külli miqdarda artıqdır. Bu qədər vəsaitin müqabilində Birliyin xaricdən baha qiymətə alıb gətirdiyi ağacların aqibəti də göz önündədir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu günədək Rusiyadan nəinki qovaq, heç bir ağac növü almayıb. Bakıda aparılan yaşıllaşdırma işlərində, ümumiyyətlə, qovaq ağacından istifadə etməyib.

# Moskvada şəmkirli iş adamını öz yerliləri öldürdü

## Toğrul Tağıyev təhdidlərə rəğmən "haqq" verməkdən imtina edirmiş...

**İş adamı Toğrul Tağıyev gecə saatlarında Moskva yaxınlığında avtomobildə yaralı halda aşkar edilib.**

Oxu.az xəbər verir ki, bununla bağlı Ren TV məlumat yayıb.

O, xəstəxanaya çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb. 36 yaşlı biznesmenin qətli ilə bağlı cinayət işi başlanıb.

İlkin ehtimallara görə, qatil çoxmərtəbəli binanın qarşısında qurbanına silahdan bir neçə dəfə atəş açıb. Hadisə yerində 9 mm kalibrli dörd giliz və bir güllə tapılıb.

Hüquq-mühafizə orqanları hücumun səbəblərini və cinayətkarın kimliyini araşdırır.

Bəzi məlumatlarda bundan əvvəl də biznesmenə qarşı sui-qəsdin olduğu deyilir.

Musavat.com-un Moskvadakı mənbələrdən əldə etdiyi məlumata görə, qətli törətməkdə şübhəli bilinən şəxslər Şəmkir rayonundandırlar. Onların Moskvada kriminal hesablaşmalarla məşğul olduqları, azərbaycanlı iş adamlarından, bazarlarda ticarətlə məşğul olan soydaşlarımızdan zorla "hesab" aldıqları deyilir.



Bu qruplaşmanın başında Həsən, Bek və Cəbi adlı qardaşların dayandığı deyilir.

Moskvadakı qaynağımızın saytımıza verdiyi məlumata görə, Bek və Cəbi ağır cinayətdə ittiham olunaraq, uzunmüddətli həbs cəzasına məhkum ediliblər. Onların hazırda Rusiya həbsxanalarından birində cəza çəkdikləri deyilir. Həsənin isə azadlıqda olduğu bildirilir. Bir başqa məlumata görə isə kriminal qruplaşmanın əsas himayəçiləri Sankt-Peterburqda meyvə biznesilə məşğul olan Şəmkir əsilli şəxslərdir. Bu qətli onların sifariş verib-vermədiyi dəqiq bilinmir.

**Moskvadakı qaynaqlarımızın bir başqa məlumatına görə, qruplaşma üzvləri bir müddət öncə, ötən gecə qətlə yetirdikləri Toğrulu qorxutmaq məqsədilə onun ayağına odlu silahdan atəş açıblar. O, təhdidlərə rəğmən istənilən qeyri-qanuni ödənişi verməkdən imtina edib. Ən sonda isə cinayətkarlar onu öldürmək qərarına gəliblər.**

❑ **Musavat.com**

# Bayıl yamacında son durum: sakinlər odun daşıyır

**11 aylıq müddətin bitməsinə az qalsa da, Nazirlər Kabinetindən xəbər yoxdur...**

Bayıl yamacında "Teleqüllə" ətrafındakı sürüşmə zonasında yaşayan sakinlər, çətin vəziyyətdədir. Bu barədə "Yeni Müsavat"a məlumat verən sakinlər bildiriblər ki, hələ də onların taleyi ilə bağlı yekun qərar verilməyib. 98 ailəyə kirayə pulunun ödənməsi üçün müəyyənləşdirilmiş 11 aylıq müddətin başa çatmasına az qalsa da, Nazirlər Kabineti hələ də bu ailələrin birdəfəlik köçürülüb-köçürülməməsi ilə bağlı qərar verməyib. Sakinlər bildirirlər ki, kirayə mənzildə qalmaqdan imtina edənlər, artıq evlərində soyuqdan qorunmaq üçün odun tədarükü görürlər.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan sakin Elməddin Muradlı bildirib ki, sürüşmə ərazisində sakinlərin gərgin vəziyyətində heç bir dəyişiklik yoxdur:** "Sakinlərin kirayə mənzildə qalmaqdan imtina edən böyük bir hissəsi, öz evlərinə qayıdıblar. Kommunal xətlərdən yalnız elektrikin və suyun verilişi bərpa edilib. Qaz olmadığı üçün insanlar qızınmaq üçün məcbur qalıb, odundan istifadə edirlər. Hazırda camaat evlərinə odun daşıyıb, qışa hazırlaşırlar. İcra hakimiyyətinin, Mənzil İstismar İdarəsinin nümayəndələri demək olar ki, hər gün ərazidədir. Yağış yağan kimi də nümayəndə göndərib, əraziyə nəzarət edirlər. Onlar da baxıb, gedirlər. Yeni sürüşmənin davam edib-etməməsi ilə bağlı konkret rəy vermirlər. Ümumilikdə isə ərazidəki vəziyyət dəyişməz olaraq qalıb".

Yada salaq ki, Bayıl ərazisində "Teleqüllə" yaxınlığında olan sürüşmə səbəbindən ərazidə məskunlaşan 98 ailə bu ilin yanvar ayından etibarən 11 aylıq müddətə kirayə mənzillərə köçürülüb. Yuxarıda da qeyd olunduğu kimi, həmin ailələrin əksəriyyəti öz evlərinə qayıdıblar. Sakinlər bildirirlər ki, verilən kirayə pulu az olduğu üçün Bayıl ərazisində ev tapa bilmirlər. Ona görə də məcbur qalıb, öz evlərinə geri dönüblər. Kirayə pulunun məbləğinə gəlincə isə qeyd edək ki, normativlərə uyğun olaraq ailə tərkibi 1-5 nəfər arası olanlara 200 manat, 6-7 nəfər olana 250 manat, 8-dən çox olanda 300 manat müəyyən olunub. O əraziyə işıq, qaz və digər kommunal xidmətlər müvəqqəti dayandırılıb.

❑ **Əli RAİS, "Yeni Müsavat"**

# Ayol, çok şaşırdık



**Ələkbər ƏLİYEV**

**Abel Məhərrəmov işdən çıxarıldı və qəfil məlum oldu ki, rektorun biznesləri və milyonları varmış. Ondan əvvəl də, işdən çıxarılan hər nazirin, yüksək ranqlı məmurun biznes və milyonları aşkarlanıb. Bundan sonra da belə olacaq.**

Yoxsa biz bilmirdik.

Nəinki bilmirdik, heç şübhə etmirdik ki, Abel Məhərrəmovun biznes və milyonları ola bilməz.

Azərbaycanlılar doğuşdan tacirdir, başqa bütün işlər onları darıxdırır. Vəzifəsi, gəliri, imtiyazları nə olur olsun, bir azərbaycanlı özünə "obyekt" açmasa, ürəyi partlayar, xərçəng tapar.

Aşağı təbəqənin də öz oyuncağı var. Məsələn, hər bir azərbaycanlı, mütləq harasa iki maşın "kubik" tökməlidir. Şərt deyil ki, harasa "kubik tökmək" ev inşaatı ilə nəticələnsin. Hətta orda heç nə tikilməsə, ya da çox gec tikilsə də olar. Əsas odur, harasa "kubik tökülsün". "Kubik tökməyən" adam uğursuzdur, çmodur, ona birtəhər baxacaqlar. "Xəbərin var, filankəs heç yerə kubik tökməyib", "Nə danışırsan aaz? Allah onun bəlasını versin..."

Sözümün canı, "kubik tökmək" səviyyəsində olan hörmətli oxucular, "obyekt açmaq" mərtəbəsinə yüksəlmiş fərasətli həmvətənlərinə qarşı çox da şey eləməsinlər, tolerant olsunlar. Bu da onların oyuncağıdır. Sən harasa iki maşın kubik tökməklə mənasız həyatını rəngləndirirsən, bunun da İspaniyaya şərab aparıb, orda şüşələrə doldurub, dala qaytarmaq kimi şıltaqlığı var. Hələ butulkaya öz adını da yazdırır. Bu da Abelin təşəbbüs imkanlarıdır. Uca xalq, əziz millət, qınama Abeli, sev, hətta qucaqla onu.

İndi mənə nə maraqlıdır? Bəs birdən hökumət, kiminsə səs-küysüz vəzifədən getməsini istəsə, necə olacaq? Məsələn, belə məsləhətdir ki, filan nazir, komitə sədri səssiz-səmirsiz getsin. Ardından şayiələr, söz-söhbətlər şleyfi uzanmasın. Hökumətə tutaq ki, heç lazım da deyil, onun biznes və milyonları bilinsin, bu haqda danışılsın.

Yoxsa belə bir opsiya ümumiyyətlə yoxdur? Necə ola bilər?

Bəzi primatlar, stress keçirdikləri zaman bilirsiniz neynirlər? Yanlarındakı meymunun üstündə bit axtarmağa başlayırlar. Anlaşılmayan, stress yaradan istənilən hadisədə, refleks işə düşür - bit axtarmaq. Bilmirəm, indi bunu niyə xatırladım.

Bütün bunlar, ürək bulandırır, çox qeyri-ciddi, profan görünür. Belə etmək lazım deyil. Hökumət öz ayağına güllə sıxır. Bu ənənəyə son qoyulmalıdır.

İşdən çıxarıldı - lap yaxşı. Camaat onsuz da, kim olursa olsun, bütün vəzifədən kənarlaşdırılmalara sevinir. Prezident kimi işdən çıxarsa, onu tanıyan-tanımayan hamı deyəcək "düz eləyib, gərək çoxdan çıxaraydı". Bu mənada, xalq prezidenti dəstəkləyir. Əlbəttə, tək bu mənada yox, həm də bu mənada. O zaman, bu oyunbazlıqlara nə lüzum var? Ya da indidən YAP-da, hökumətdə kimin nə mal-mülkü varsa, siyahıları ötürün mətbuata, işimizi biləк.

Bir az ciddi olalım, əfəndim. Çuşka olmayalım.

Yaxşı mantraları da var, vəzifədən atılan kimi, "Mən cənab prezidentə sədaqətlə xidmət etmişəm" deyirlər. Bu cümlənin sehrli gücünə inanırlar, guya onları qəza-bəladan qoruyacaq. Vəzifədən kənarlaşdırılmalarını da "istirahətə getmək" kimi şərh edirlər. Nəsə mən işdən qovulan, varidatı mətbuata çıxarılan adamların, dərhal Maldiv adalarına uçduğunu heç görmədim. Ya xəstəliyə tutulurlar, ya da minimum dinə. Hikmətli kəlamlara, ayələrə müraciət edir, qəzəl deyir, Quran və muğam oxuyurlar. Nə illətdir, bilinmir. Jurnalist zəng edir, mikrafon uzadır sual verir, bu da başlayır dili topuq vura-vura ərəbcə danışmağa.

Ay adam, sən onsuz da xidmət edə bilmədiyin üçün kreslonu itirmisən. Paradoksu görə bilməyəcək qədər başları qaçıb bunların. Gör vəzifə adamı nə yazıq günlərə salır.

YENİ MÜSAVAT
N 250 (7139) 23 noyabr 2018

**Noyabrın 21-də Qarabağ Komitəsinin toplantısı keçirilib. Toplantıda təşkilati məsələlərə baxılıb və Sevinc Axundova yekdilliklə Qarabağ Komitəsinə üzv seçilib. Bununla da Qarabağ Komitəsinin üzvlərinin sayı 38 nəfərə çatıb. İclasda, eyni zamanda Qarabağ Komitəsinin üzvü Əvəz Zeynallı Komitənin mətbuat xidmətinin rəhbəri seçilib.**

# 24 noyabra təyin olunan mitinqlə bağlı qeyri-müəyyənlik

## Pənah Hüseyn: "24 noyabr mitinqi ilə bağlı sosial şəbəkədə hətta təxribat olacağı haqda müəyyən şayiələr buraxılıb"

İclasda daha sonra 24 noyabr 2018-ci ildə keçiriləcək mitinq məsələsi və mitinqə verilən rədd qərarından Bakı 1 saylı İnzibati-İqtisad Məhkəməsinə olunan müraciət müzakirə olunub. Müzakirələrdə məhkəmənin verdiyi qərarın doğru olmadığı bildirilib. Bəyan edilib ki, 24 noyabrda keçirilməsi istənilən mitinqin məhkəmə baxışının dekabrın 7-nə təyin edilməsi qanunsuzdur. Aparılan müzakirələr nəticəsində qərara alınıb ki, 23 noyabrda saat 11.00-da Qarabağ Komitəsinin İşçi qrupunun fövqəladə iclası çağırılsın və 24 noyabrda mitinqin keçirilib-keçirilməməsi barədə son qərar o iclasda verilsin.

**Qarabağ Komitəsinin İşçi qrupunun üzvü, AXP sədri Pənah Hüseyn** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, 24 noyabr mitinqinin qadağa olunmasına görə BŞİHİ qərarından 1 saylı Bakı inzibati iqtisadi məhkəməsinə edilən şikayətə baxılması qanunsuz olaraq 7 dekabra təyin edilib. Qanunun tələbinə görə şikayətə 24 noyabra qədər baxılmalı idi: "1 saylı Bakı İnzibati İqtisadi Məhkəməsinin müraciətimizə cavabı Azərbaycanda məhkəmə sisteminin müstəqil olmadığının bariz nümunəsidir. Ayın 21-də Qarabağ Komitəsinin toplantısından sonra 1 saylı Bakı İnzibati İqtisadi Məhkəməsində olub, Minsk Qrupu həmsədr ölkə səfirlikləri qarşısında piketin qadağan edilməsi haqqında Bakı şəhər İcra Hakimiyyətinin qərarından verdiyim şikayətin taleyi ilə maraqlandım. Dəftərxanada məlum oldu ki, iş hakim Miminat Hacçbəyovaya verilib. Hakimin köməkçiləri xeyli axtarışdan sonra məlumat verdilər ki, bu işə baxış ümumiyyətlə təyin edilməyib və nə vaxt təyin ediləcəyi də məlum deyil. Mən "Sərbəst toplaşma azadlığı haqqında" qanunun 11 -ci maddəsində bu cür işlərin şikayət daxil olduqdan sonra 2 gün ərzində baxılmalıdır müddəasını xatırlatdıqda isə dedilər ki, onlar İnzibati Prosessual Məcəllənin müddəalarını əsas tuturlar. İPM- də isə işin baxılması müddəti barədə konkret müddəa yoxdur. Mən elementar hüquqi bilgilərimə istinad edib, bu halın xüsusi hal olduğunu, məsələn Seçki prosesində olduğu kimi, qanunun özündəki müddəanın (konkret halda Sərbəst Toplaşma Azadlığı haqqında qanunun 11- ci madəsinin) üstün prosessual qayda kimi götürülməli olduğunu dedikdə isə dedilər ki, onlar üçün əsas olan İP Məcəllədir, Sərbəst toplaşma azadlığı qanununu isə tanımırlar. Mən bu məsələdən də şikayət verəcəyəm".



Pənah Hüseyn

**P.Hüseyn hesab edir ki, Qarabağ mitinqinə razılıq verilməməsinin səbəbi var:** "Mitinqə münasibətin nədən ibarət olması əslində Bakı Şəhər İcra Hakimiyyətinin cavabında qeyd olunub. Orada yazılıb ki, prezident İlham Əliyevin apardığı siyasət Qarabağın azad olunması məsələlərini əhatə edir, ona görə də mitinq keçirmək məqsədəuyğun deyil. Mitinqə razılıq verilməməsində başqa məsələlər də var. Azərbaycan prezidenti ilə Ermənistan baş nazirinin Düşənbədə görüşündə müəyyən razılaşmaların olması və bu razılaşmaların Azərbaycan tərəfinin də bir növü davakar olmayan mövqeyinin ifadə olunmasını gərəkliyi deyilir. Məncə, əsas səbəb Qarabağ məsələsinin xalqı fəallaşdıra və təşkilatlandıra biləcək ideya ola biləcəyindən ehtiyatlanmaqdır. Amma biz hesab edirik ki, Azərbaycan üçün Qarabağ məsələsi, hakimiyyət məsələsindən mühümdür. Qarabağla bağlı baş verənlər, işğalın bu qədər uzanması, beynəlxalq məkanda separatçı rejimin qəbul edilməyə başlaması kimi məsələlər Azərbaycan cəmiyyətini və bizi narahat edir. Qarabağla bağlı mitinqin keçirilməsinin məqsədi də bu narahatlığı ortalığa qoymaqdan ibarətdir".

**P.Hüseynin sözlərinə görə, işin hüquqi tərəfi ondan ibarətdir ki, mitinqlə bağlı müraciət qanunvericiliyə tam uyğundur. Bu müraciətə verilən cavab isə qanuna qətiyyən uyğun deyil:** "Müraciətimizdə qətiyyən siyasi tələblər qətiyyən yox idi. Sentyabrda keçirdiyimiz mitinqdə ayrı-ayrı adamların çıxışlarını əsas kimi göstərmək istəyirlər. Lakin bu bir bəhanədir və mitinqə razılıq verilməməsi üçün hüquqi əsas ola bilməz.

Hakimiyyət bilməlidir ki, biz hər bir halda Qarabağ məsələsini gündəmdə bir nömrəli məsələ kimi saxlamaqda davam edəcəyik".

**AXP sədri dedi ki, 24 noyabr mitinqi ilə bağlı son qərarın necə olacağı haqda qəti fikir söyləməkdə çətinlik çəkir:** "Yekun qərara 23 noyabrda gələcək. Ən azı bu günə Qarabağ Komitəsinin razılaşdırılmamış aksiyalar keçirməmək barədə prinsipial mövqeyi var. Biz məhkəmənin münasibətini də gözləyəcəyik və ona uyğun olaraq da qərar qəbul olunacaq. Açığı, 24 noyabr mitinqi ilə bağlı sosial şəbəkədə narahatlıq doğuran bir ajiotaj yaranıb, hətta təxribat olacağı haqda da müəyyən şayiələr buraxılıb. Ona görə də biz bütün bu kimi məsələləri nəzərə alacağıq".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Təhsil kreditləri: dünya təcrübəsi nə deyir?

## Saleh Məmmədov: "Təhsil sərmayə üçün ən perspektivli sahədir"

**Azərbaycanda aztəminatlı ailələrin övladları üçün təhsil kreditlərinin verilməsi məsələsi yenidən gündəmə gətirilib. Xatırladaq ki, Milli Məclisdə 2019-cu ilin dövlət büdcə sənədinin müzakirələri zamanı deputatlar bu məsələni qaldırmışdılar.**

**Maliyyə naziri Samir Şərifov** isə qeyd edib ki, bizim bank təşkilatlarımız bu riski öz üzərlərinə götürmək istəmirlər: "Yaxşı, buna dövlət müdaxilə etsə, bəri başdan etiraf edək ki, bu kreditlər qaytarılmayacaq. Xaricdə bu məsələ belə qurulub. Kredit verilir, amma həmin məzunlar işə qəbul olunduqdan sonra işəgötürənlər banklarla müqavilə bağlayır və kreditlər geri qaytarılır. Hazırda bununla bağlı bir mexanizm tapa bilməmişik. Müəyyən cəhdlər var. Lakin bunlar, deməzdim ki, kütləvi şəkildə həll edilir".

**Təhsil naziri Ceyhun Bayramov** isə məsələnin həlli üzərində iş getdiyini deyib. O qeyd edib ki, bir neçə ildir ki, aztəminatlı tələbələrin təhsil haqlarının ödənilməsi üçün təhsil kreditləri verilir, amma Maarifçi Kredit Fondu tərəfindən verilən kreditlərin hesabına müraciət edən bütün tələbələrin ehtiyaclarını ödəmək mümkün deyil: "Bu məsələ bir neçə dəfə parlamentdə də qaldırılıb. Maliyyə Nazirliyi əsas problem kimi təhsil kreditlərinin qaytarılma mexanizmində tam aydınlığın olmamasını deyir. Biz də Təhsil Nazirliyi olaraq, rəyləri nəzərə almaqla, alternativ mexanizmlər üzərində düşünürk. Biz onları yaxın müddətdə hökumətə təqdim edəcəyik. Biz bu məsələnin həll ediləcəyinə kifayət qədər nikbin baxırıq".

Xatırladaq ki, Azərbaycanda təhsil haqqını ödəməkdə çətinlik çəkən aztəminatlı ailələrdən olan tələbələrə uzunmüddətli güzəştli kreditlər verilir. Bunu Təhsil Nazirliyinin təşəbbüsü ilə BDU, Dillər, Pedaqoji, Neft və Sənaye, Texniki, Dövlət İqtisad, Memarlıq və İnşaat, Bakı Slavyan, Gəncə və Sumqayıt Dövlət universitetlərinin təsis etdiyi "Maarifçi" Tələbə Kredit Fondu reallaşdırır. Fonda Azərbaycan vətəndaşı olan, təsisçi universitetlərin birində təhsil alan və təhsilini davam etdirmək üçün maliyyə yardımına ehtiyac duyan tələbələr müraciət edə bilərlər. Onların yaşı 25-dən çox, ailəsinin kredit borcu, ailə gəliri il ərzində 10 min manatdan çox olmamalıdır. Lakin bu fondun imkanları xeyli məhduddur və ildə 100-dək tələbənin kredit müraciətini ancaq qarşılaya bilir.



Saleh Məmmədov

Azərbaycanda təhsil kreditləşməsi ilə bağlı təklifi ilk səsləndirənlərdən biri, sabiq maliyyə naziri Saleh Məmmədovun sözlərinə görə, Avropa ölkələri və ABŞ, postsovet məkanından isə Rusiya, Ukrayna, Belarus, Qazaxıstan və Özbəkistan təhsil kreditləşməsini tətbiq edirlər: "Məsələn, ABŞ-da bununla Federal Agentlik məşğul olur. Agentliyin çox böyük dövriyyəsi var. Kreditlər 3 növdür: federal tələbə krediti, valideyn krediti və özəl kredit. Hər biri müxtəlif qruplara və şərtlərlə verilir, faizlər çox aşağıdır. Dövlət yaxşı oxuyan tələbələr üçün bir sıra başqa güzəştlər də tətbiq edir. Bəzi ştatlarda təhsildə, elmdə yüksək nəticə əldə edən tələbələrə o kreditlər bağışlanır. Analoji qurumlar Almaniyada var, Fransada, Böyük Britaniyada, Şərqi Avropa ölkələrində də var. Kreditlərin mənbəyi kimi adətən dövlət resursları çıxış edir, amma dövlətin stimullaşdırdığı özəl fondlar, banklar da bu prosesdə iştirak edə bilir. Həmçinin universitetlərin özləri də kredit ayırırlar. Əksər ölkələrdə faizlər çox aşağı, müddət uzun olduğu üçün qaytarılmasında çətinlik yaratmır. Adətən kreditin qaytarılmasına universiteti bitirdikdən 2 il sonra başlanılır, 5-7-10 ilə, bəzənsə 30 ilədək müddətdə qaytarılır. Bütün dünyada təhsilin inkişaf etdirilməsində bu kreditlər böyük rol oynayır. Müsəlman ölkələrindən İndoneziya və Türkiyədə məhdud da olsa təhsil kreditləşməsi tətbiq olunmağa başlayıb. Avstraliyada təhsil kreditləri faizsiz verilir. Bəzi ölkələrdə isə faizlər yalnız texniki xərcləri örtəcək həcmdə olur - 1-2 faiz".

**S.Məmmədovun sözlərinə görə, müstəqillik dövründə ölkəmizdə təhsil və elmin inkişafı sahəsində ciddi problemlər yaranıb:** "Faktiki olaraq, bu iki sahədə biz sovet dövrünə nisbətən geri getmişik. Elmə çəkilən xərclər də azalıb, bu xərclərdən əldə olunan nəticələr də. Yəni bu gün təhsil və elm sahəsində ciddi keyfiyyət problemi yaşayırıq. Bunun qarşısını almağın bir yolu da təhsil kreditləşməsini tətbiq etməkdir".

**Müsahibimiz hesab edir ki, təhsil elə bir sahədir ki, daim təkmilləşmə, daim hərəkət tələb edir:** "2011-ci ildən bəri Finlandiya ciddi bir təhsil islahatına başlayıb, bütün dünya onun nəticələrini gözləyir. Tamam fərqli bir sistem yaradırlar. Bizdə də təhsil islahatı layihəsi hazırlanmalı və sürətlə həyata keçirilməlidir. Bu baxımdan, təhsil kreditləşməsinin tətbiqi ilk addımlardan biri ola bilər. Özü də kredit yalnız daxildə deyil, xaricdə təhsil almaq üçün də verilməlidir. Təəssüf ki, xaricdə təhsil proqramı dayandırıldı, indi yalnız doktorantura təhsilinə vəsait ayrılacaq. Halbuki yaxşı bir sxemlə bakalavr, magistr pilləsində təhsili də dövlət hesabına maliyyələşdirmək olardı. Məsələn, dünyanın 10 ən nüfuzlu universitetinə qəbul olunan tələbələrin təhsili tam maliyyələşdirilərdi. Ən nüfuzlu 11-100-cü universitetlərinə daxil olanlara isə güzəştli kreditlər verilərdi. Bu zaman yüksək nəticə əldə edənlərin kreditləri bağışlanardı. Daxildə təhsil alanlar üçün aşağı faizlə kredit verilməlidir".

**S.Məmmədovun fikrincə, təhsil kreditlərinin qaytarılması ciddi problem yaratmayacaq:** "Bunun üçün təhsili başa vuran tələbə işləməyə başladığı 2-ci ildən sonra kreditin faizlərini, 5-ci ildən sonra isə özünü qaytarmağa başlayarlar. Burada da əla nəticələri olan tələbələrin kreditləri bağışlana bilər".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# Türkiyədə AKP və MHP yenidən birləşir?

## Ərdoğan və Baxçalı yenidən görüşdü, türkiyəli ekspert Hasan Oktay deyir ki, hökumət Ankara və İstanbulu itirərsə növbədənkənar parlament seçkiləri gündəmə gələ bilər

**Noyabrın 21-də Türkiyə prezidenti, hakim AKP-nin sədri Rəcəb Tayyib Ərdoğan Ankarada prezident iqamətgahında MHP sədri Dövlət Baxçalını qəbul edib. Yerli vaxtla saat 16-da başlayan görüş qapalı olub və 55 dəqiqə davam edib.**

**Ərdoğan və Baxçalı sonuncu dəfə oktyabrın 16-da görüşüb, lakin təxminən bu tarixdən sonra iki partiya arasında soyuqluq yaranıb. AKP-nin Baxçalının amnistiya təklifini rədd etməsi, milliyyətçiliklə bağlı sərt sözləri iki partiya arasında ittifaqın sona çatması kimi yozuldu. Ancaq görünür ki, liderlər birgə davam etməyi düşünürlər.**

Məsələ ondadır ki, hər nə qədər iki təşkilat arasında sözlü atışma olsa da, görünür ki, yaranmış yeni siyasi şərtlər AKP və MHP liderini yenidən barışmağa məcbur edir. Yeri gəlmişkən, 21 noyabr görüşündən sonra partiyaların sədr müavinləri səviyyəsində müzakirələrin davam aparılması və yekun olaraq hazırlanan anlaşmanın liderlərə təqdim edilməsi qərarlaşdırılıb. Bu barədə mətbuata AKP sözçüsü məlumat verib.



Söhbət ana müxalifət CHP ilə əsasən MHP-dən ayrılan və AKP-dən narazı mühafizəkar kəsimin təmsil olunduğu İYİ Partiyanın bələdiyyə seçkilərinə ittifaqla getməsi perspektivindən gedir. Məsələ ondadır ki, bundan əvvəl AKP və MHP həm 2017-ci il referendumu, həm də bu il keçirilən prezident və parlament seçkilərində birgə ittifaqla qatılıb və bu ittifaq uğurlu olub. Ən azı hər ikisindən qalib çıxıb.

Ancaq son parlament seçkilərində CHP və İYİ Partiya ittifaqla qatılıb, nəticədə yeni yaranmasına baxmayaraq Meral Akşenerin partiyası da parlamentə düşə bilib. İndi isə CHP və İYİ Partiya bələdiyyə seçkilərinə birgə getmək üçün hazırlıq görür. Bu isə MHP ilə yollarını ayıran AKP üçün ciddi riskdir. Çünki son anket sorğuları AKP-nin vəziyyətinin heç də yaxşı olmadığını göstərir. Yəni MHP ilə ittifaqın pozulması bələdiyyə seçkilərində, xüsusən də İstanbul və Ankara kimi iri şəhərlərin mer seçkilərində AKP-yə baha başa gələ bilər.

Məsələ ondadır ki, bələdiyyə seçkiləri Türkiyədə siyasi mənzərənin müəyyənləşməsində həlledici rol oynayır. Xüsusən də "Böyük şəhər" bələdiyyələri adlandırılan 20-dən artıq bələdiyyələrdə sədr seçkilərinin nəticələri siyasi mənzərəni müəyyən edir. Bu mənada Ərdoğan və Baxçalının görüşü və onun nəticəsində formalaşacaq yeni ittifaq 2019-cu il martın 31-də keçiriləcək bələdiyyə seçkilərinin taleyini müəyyən edə bilər.

Təbii ki, əsas hədəf Türkiyədə "ölkə içində ölkə" hesab olunan İstanbul və Ankara kimi böyük şəhərlərin merinin seçilməsidir. Əgər AKP İstanbul və ya Ankarada seçkiləri uduzarsa, növbədənkənar seçkilər gündəmə gələ bilər.

**Politoloq, "Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin sədri Hasan Oktay** deyir ki, bələdiyyə seçkiləri Türkiyə siyasi gündəmində ciddi həyəcan yaratmaqdadır. Artıq iri siyasi partiyaların bələdiyyə seçkilərinə getmək üçün seçki ittifaqları danışıqlarını başlatdığını deyən H.Oktayın sözlərinə görə, Türkiyə Seçki Qanunu bələdiyyə seçkilərində partiyaların seçki pbloku yaratmasına icazə verməsə də, siyasi təşkilatlar fərqli fromalarda ittifaqlar qururlar. Burda əsasən bir-birinin namizədini müəyyən etmək taktikası yürüdülür.

**Sitat:** "Bu seçkilərdə də 24 iyun prezident və parlament seçkilərində olduğu kimi partiyalar "Cumhur İttifaqı" və "Millət İttifaqı" formasında birləşəcəklər, ancaq bu birlik rəsmi olmayacaq. Xüsusən də 24 iyun seçkilərində AKP-MHP ittifaqı cüzi fərqlə qalib gəldikdən sonra "Millət İttifaqı"nı təşkil edən CHP, İYİ Partiya və Səadət Partiyası bələdiyyə seçkilərinə hazırlaşmağa başladı. "Millət İttifaqı" hazırda rəy sorğularına görə, Ankara və İstanbul kimi iri şəhərlərdə öndədir. Bu səbəbdən də MHP 24 iyunda formalaşan yeni siyasi sistemin davam etməsi üçün AKP-nin İstanbul və Ankara bələdiyyə sədri postlarını qoruması lazım gəldiyinə qərar verib. Bu səbəbdən də MHP gələn ilki bələdiyyə seçkilərində Ankara və İstanbuldan namizəd irəli sürməyəcək və AKP-nin namizədini dəstəkləyəcək".

H.Oktay deyir ki, ilk vaxtlarda AKP rəhbərliyi yeni ittifaq təklifinə isti yanaşmasa da, sonradan baş verənlər hökuməti barışmağa vadar edib: "Çünki rəy sorğuları göstərdi ki, AKP İstanbul və Ankaranın meri postunu qazana bilməyəcək. Bundan sonra AKP-də vəziyyət dəyişdi və bildiyiniz kimi, ötən gün prezident Ərdoğan Baxçalı ilə görüşdü. Görüş barədə yayılan məlumatlardan da anlaşılır ki, yaxın zamanlarda CHP-İYİ Partiya ittifaqına qarşı AKP-MHP ittifaqı qurulacaq".

**Hələlik AKP-MHP ittifaqının seçki ilə bağlı razılaşması bilinməsə də, H.Oktaya görə, MHP İstanbul və Ankara kimi şəhərlərdə öz namizədi ilə çıxış etməyəcək, AKP-nin namizədlərini müdafiə edəcək:** "Bunun qarşılığında hələlik bilinən odur ki, razılaşma yoxdur, lakin ehtimal ki, bu dəstəyin qarşılığında Adana, Mersin və Manisada irəli sürəcəyi mer postuna irəli sürəcəyi namizədlərə dəstək istəyəcək. Bələdiyyə seçki ittifaqları rəsmi olmadığı üçün rəy sorğuları reallığı əks etdirməyə bilər. ancaq istənilən halda bələdiyyə seçkiləri. xüsusən də böyük şəhər bələdiyyələrinin seçilməsi ciddi siyasi yük daşıyır. Əgər hökumət Ankara və İstanbulda mer postunu itirərsə, seçkini CHP qazanarsa, o zaman növbədənkənar parlemtn seçkiləri gündəmə gələ bilər".

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Qaşıqçı olayında yeni detallar üzə çıxır

## Çavuşoğlu "cinayəti törədənlər Türkiyədə də mühakimə olunmalıdır" deyib



Camal Qaşıqçı

**ABŞ prezidenti Donald Tramp Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanı Camal Qaşıqçı cinayətindən qurtulsun deyə, 450 milyard dollarlıq sərmayəyə razı salmağa çalışır.**

Dünya mediası yazır ki, əslində, Trampın buna dair bəyanatı Səudiyyə Ərəbistanına göstərilən bir yoldur: "Təhlükəli bir yer olduğu üçün, ABŞ nə olursa-olsun Səudiyyə Ərəbistanına dəstək verməyə davam edəcək. ABŞ prezidenti bu bəyanatda Səudiyyə şahzadəsini 450 milyard dollarlıq bir sərmayəyə çağırır", - məqalədə deyilir.

Xatırladaq ki, ABŞ prezidenti şahzadə Salmanın Qaşıqçı cinayəti barədə informasiya sahibi ola biləcəyini, lakin sanksiyaların tətbiqinə soyuq yanaşdığını bildirmişdi. ABŞ-ın İsrail və bölgədəki digər müttəfiqlərinin təhlükəsizliyini təmin etmək üçün Səudiyyə Ərəbistanı ilə əməkdaşlığı davam etdirəcəyini deyən Ağ Evin başçısı Ər-Riyadla imzalanan silah razılaşmalarına diqqət çəkib.

Trampın sözlərinə görə, Səudiyyə Ərəbistanına qarşı sanksiyaların qəbul edilməsi Rusiya və Çinin maraqlarına xidmət edəcək.

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu** Camal Qaşıqçı cinayətinə münasibət bildirib.O, "Cinayəti törədənlər Türkiyədə də mühakimə olunmalıdır" deyib. "Həqiqi məsuliyyətlilər ortaya çıxmalıdır. Bu günə qədər Səudiyyə Ərəbistanından ziddiyyətli açıqlamalar verildi. Səudiyyə Ərəbistanının əməkdaşlıq təkliflərini qəbul etdik. İş birliyindən gözləntilər sadəcə bizdən məlumatlar almaq, dəlillər qəbul etməkdirsə, bu doğru deyil. Əməkdaşlığın məqsədi ayrı-ayrı araşdırmalar apararaq məlumatı bölüşməkdir. Səudiyyə Ərəbistanı tərəfindən heç bir məlumat verilmədi. 3 məruzəçinin BMT baş katibliyinə müstəqil istintaq çağırışı göndərməsi vacibdir. Biz bundan sonra Səudiyyə Ərəbistanı başda olmaqla, hamı ilə iş birliyinə varıq".

Musavat.com isə yazıb ki, Səudiyyə Ərəbistan mediası bütünlüklə şahzadə Məhəmməd bin Salmanın müdafiəsi üçün səfərbər edilib.

Hətta Qaşıqçının özünü belə ittiham edən "Okaz" qəzetinin ümumi xətti bundan ibarət olub ki, bu cinayətinin əsl qurbanı, heç demə, Səudiyyə Ərəbistanı imiş. Bütün bunlar şahzadə Məhəmməd bin Salmanın "Vision 2030" islahatlar proqramının qarşısını almaq üçünmüş...

Qaşıqçının ölümü Səudiyyə Ərəbistanının özü tərəfindən rəsmən etiraf edildikdən sonra isə düşmənlərinin dairəsi daha da genişlənib...

Bu həftənin 1-ci günü isə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin artıq Qaşıqçının ölümündə MBS-ni ittiham edə biləcəyi barədə informasiyalar yayıldıqdan sonra "Okaz"ın ritorikası bütün xəyal gücünü keçib.

"Qətərin kafir əmiri İsrail, İran və "Müsəlman qardaşlar"la Səudiyyə Ərəbistanını bölmək barədə saziş bağlayıb",-"Der Spiegel" "Okaz"dakı məqalədən sitat gətirib.

Sözügedən istiqamətdəki daha bir xəbər isə Qaşıqçının 2016-cı ildə Səudiyyə Ərəbistanında olarkən hələ vəzifəsinə başlamamış ABŞ prezidenti Donald Trampı tənqid etməsinin Səudiyyə rəhbərliyi tərəfindən xoş qarşılanmamasıdır.

Məlumata görə, Səudiyyə rəhbərliyi ona jurnalist fəaliyyəti ilə məşğul olmaq qadağası qoyub. ABŞ mediasının yazdığına görə, bu hadisə ABŞ Dövlət Departamentinin "2017-ci il İnsan Hüquqları Hesabatı"nın Səudiyyə Ərəbistanına aid hissəsində də yer alıb.

Hesabata görə, Trampı tənqid etdiyi üçün Səudiyyə krallığı onun çalışdığı "Al-Həyat" qəzetini bağlayır, hər hansı nəşr üçün yazı yazmasını, həmçinin konfrans verməsi və televiziya kanallarına çıxmasını qadağan edir. Qadağalar bir müddət sonra aradan qaldırılır, lakin həbs olunma təhlükəsinin qaldığını düşünən jurnalist ABŞ-a köçür.

Qeyd edilirdi ki, ABŞ-a gəlməsindən sonra Ər-Riyadı Yəmən siyasəti, mətbuata qoyulan qadağalar və digər mövzularda tənqid etməyə başlayan Qaşıqçı ölkəsinə geri dönəcəyi halda, həbs olunacağını söyləyirdi.

Qaşıqçı Səudiyyə rəhbərliyi tərəfindən təzyiq edilməsinə səbəb olduğu yazılarda Trampın xarici siyasətini "ziddiyyətli" adlandırmış, "prezident Trampın prezident Trampdan daha fərqli olacağını gözləmək, ən iyi ehtimalla yanlış bir ümiddir" yazmışdı.

Qeyd edək ki, bir neçə gün əvvəl MKİ-dəki mənbəyə istinadən "Vaşinqton Post" nəşrinin yazdığına görə, MKİ Qaşıqçının ölüm əmrinin Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman tərəfindən verildiyi qənaətinə gəlib.

Daha əvvəl isə Səudiyyə Ərəbistanının Baş Prokurorluğu Qaşıqçının cinayəti ilə bağlı şok detalları açıqlayıb. Prokurorluq Qaşıqçının cəsədinin parçalanaraq İstanbuldakı baş konsulluqdan çıxarıldığını etiraf edib. Açıqlamada Qaşıqçının ölümündə boğulmanın və öldürücü dozada verilən dərmanın təsiri olduğunu bildirib.

Prokurorun açıqlamasına görə, Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanın məsləhətçisi Səud əl Kahtaniyə Qaşıqçını ölkəyə geri qaytarmaq əmri verilib. Ölkəyə geri qaytarılması təmin olunmadıqda isə öldürülüb. Ölüm əmrini İstanbula göndərilən komandanın başçısı verib. Kahtaninin ölkədən çıxışı qadağan edilib.

**Cinayətdə adları çəkilən 11 şübhəlidən 5-nin edam edilməsi tələb olunub.**

❑ **Hazırladı: Sevinc TELMANQIZI, Musavat.com**

YENİ MÜSAVAT
N 250 (7139) 23 noyabr 2015



## «Bakcell» «ASAN Məktub»dan təşəkkürnamə alıb




**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi «Bakcell» şirkəti «ASAN Məktub» təşəbbüsündə fəal iştirakına görə təşəkkürnamə ilə təltif olunub.**

**«ASAN Könüllüləri» Təşkilatının «ASAN Məktub» layihəsinin əsas məqsədi həssas qruplara aid olan uşaqlara sevinc bəxş etmək və cəmiyyətdə sosial məsuliyyət və qayğı hissini daha da artırmaqdır.**

**Noyabr ayının 21-də layihənin 3 yaşına həsr edilmiş xüsusi tədbir keçirilib. Tədbirdə bu təşəbbüsə dəstək göstərən tərəfdaşlara təşəkkürnamələr təqdim edilib.**

**«Bakcell Stars» Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə xüsusi qayğıya ehtiyacı olan və həssas qruplara aid uşaqları daim diqqət mərkəzində saxlayan «Bakcell» şirkəti davamlı şəkildə «ASAN Məktub» layihəsinə verdiyi dəstəyə görə təşəkkürnamə ilə təltif edilib.**

**«Bakcell» şirkəti xüsusi qayğıya ehtiyacı olan uşaqlara kömək üçün, onlara bərabər hüquqların, inklüziv təhsil imkanlarının təmin edilməsinə yönəlmiş bir çox layihələrdə fəal iştirak edərək minlərlə uşağa dəstək göstərib. «ASAN Məktub» layihəsi uşaqları sevindirmək və onların saf arzularını həyata keçirə bilmək üçün bizə daha böyük imkan yaradıb», deyə «Bakcell» şirkətinin İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiya departamentinin rəhbəri Süheylə Cəfərova bildirib.**

**Uşaqların saf arzularını reallığa çevirən «ASAN Məktub» layihəsi www.asanmektub.az ttp://www.asanmektub.az internet səhifəsi vasitəsilə 14 yaşadək olan uşaqları əhatə edir. Layihə çərçivəsində uşaqların yazdığı məktublar sayta yerləşdirilir və onların istəkləri müxtəlif şirkətlər və xeyirxah vətəndaşlar tərəfindən gerçəyə çevrilir. «Bakcell» şirkəti layihəyə həmçinin mobil rabitə dəstəyi göstərir.**


## Diqqət! Diqqət!!!

2012-ci ildən bütün beynəlxalq bal sərgilərinin qalibi - Qırğızıstanın dünya şöhrətli "Darı Tyanşana" şirkətinin balları və müalicəvi bal məhsulları geniş çeşidlə Bakıda:

**- Arı südü**
**- Ağ bal (Atbaşı)**
**- Qara bal (Qreçka)**
**- İssık kul balı**
**- Esparset balı**
**- Karkıra balı**
**- Uzqen balı**
**- Suusamır balı**
**- Çayek balı**
**- Mumiya**
**- Şamı nalı və s.**

Diqqətinizə çatdırırıq ki, Şirkətin məhsulları yarmarka və bazarlarda satılmır. Çatdırılma pulsuzdur.

**Əlaqə telefonları: (051) 922-15-71;**
**(055) 300-29-91**
**Ünvan: Neftçi Qurban küçəsi 103**
**(5 saylı doğum evinin yaxınlığında)**


# Bölgələrdə vəhşi heyvanların insanlara hücumu artıb-rəsmi reaksiya

## **ETSN:** "Vəhşi heyvanlar kəndə və ya kiməsə hücum edərsə, bununla bağlı ərazi üzrə ekologiya idarələrinə müraciət etsinlər"

**Son zamanlar bölgələrimizdə tez-tez yırtıcı heyvanların vətəndaşlara hücum etməsi xəbərlərinə rast gəlirik. Yırtıcı heyvanlar xüsusilə də cənub rayonlarında daha da azğınlaşıb. Belə ki, noyabrın 21-də Lənkəran rayonunda çaqqallar sakinlərə hücum edib. Hadisə rayonun Osakücə kəndində qeydə alınıb.**



Belə ki, kənd sakini, 58 yaşlı Südabə Əlibala qızı Həsənova, 60 yaşlı Bəxtiyar Şahhüseyn oğlu Həsənov, 37 yaşlı Rakif Balaxan oğlu Dövlətov və 1 yaşlı Cavid Ələmdar oğlu Hümmətov yırtıcı heyvanların hücumu nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Yaralılar Lənkəran Rayon Mərkəzi Xəstəxanasına çatdırılıblar. Onlara quduzluq əleyhinə vaksin vurulub. Xəsarət alan S.Həsənovanın sözlərinə görə, bağda toyuq-cücə səsi eşidərək həyətə düşüb və çaqqalın ev quşlarını tələf etdiyini görüb. Bu zaman yırtıcı heyvan ona hücum edib: "Boğazımı dişləmək istəyirdi. Əllərimlə üzümü tutdum. Yerə yıxılıb sifətimi yerə dayadım. Evdəkiləri köməyə çağırdım".

Çaqqal qadının bədəninin müxtəlif nahiyələrinə xəsarətlər yetirib. Köməyə gələn onun həyat yoldaşı B.Həsənov da yırtıcı heyvanların hücumuna məruz qalıb. Çaqqal onun üzərinə tullanaraq sifətini dişləyib.

Eyni zamanda bu il oktyabrın 31-də də Lənkəranda 4 yaşlı uşaq çaqqal hücumuna məruz qalıb. Hadisə rayonun Şürük kəndində qeydə alınıb.

Belə ki, Səbuhi Əzizov gündüz vaxtı həyətdə yaşıdları ilə oynayarkən qəfildən kolluqdan çıxan çaqqal ona hücum edib. Səs-küyə həyətə çıxan ana uşağı çətinliklə də olsa çaqqalın caynağından xilas edə bilib.

Üzündən və ayağından xəsarətlər alan S.Əzizov Lənkəran Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb və ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb. Ancaq evə qaytdıqdan sonra ərazidən uzaqlaşmayan çaqqal yenidən onların və ətrafdakı digər insanların üzərinə də hücum çəkib.

Kənd sakinləri çaqqalın gündüz vaxtı yaşayış məntəqəsinin mərkəzində həyətlərə daxil olması ilə ilk dəfə qarşılaşdıqlarını bildiriblər.

Sakinlər bildirirlər ki, yırtıcı heyvanların bu qədər çoxalmasının səbəbi, onların ovlanmasına qoyulan qadağadır. Bildirilir ki, bunun nəticəsində meşəlik ərazilərdə ayıların, canavarların da sayında artım var. Xüsusilə də canavarların da sayının artması, sakinləri qorxuya salıb.

Məsələ ilə bağlı **Ekologiya və Təbii Sərvətlər Nazirliyi**ndən "Yeni Müsavat"a bildirilib ki, vəhşi heyvanlar kəndə və ya kiməsə hücum edərsə, bununla bağlı ərazi üzrə ekologiya idarələrinə müraciət etsinlər: "Belə müraciət daxil olan zaman regional ekologiya idarələri tərəfindən dərhal xüsusi qrup yaradılır. Həmin qrupa bələdiyyə, icra nümayəndəliyi, baytarlığın nümayəndəsi, peşəkar ovçular daxil edilir. Qrup şikayət edilən ərazilərdə reydlər keçirir. Bu o demək deyil ki, həmin qrupun üzvləri vəhşi heyvanları öldürə bilər. Xeyr. Həmin qrupun üzvləri günün müxtəlif saatlarında reydlər keçirərək canavarları və digər vəhşi heyvanları müxtəlif üsullarla ərazidən uzaqlaşdırır".

**Bildirilib ki, Azərbaycan 1999-cu ildən Avropada "Vəhşi təbiətin qorunması" Beynəlxalq Konvensiyasının üzvüdür:** "Həmin Konvensiyaya görə, Azərbaycanda da canavarların ovlanması birmənalı şəkildə qadağandır. Bu ov qanun pozuntusu hesab edilir. Yəni təqib edib, vuranda İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə 1000-2000 manat məbləğində cərimə edilir. Bu qanunun istisnası da var. Belə ki, canavar və yaxud hər hansı bir vəhşi heyvan insan həyatına təhlükə yaradırsa, yəni onun üzərinə hücum edirsə, son zərurət tədbiri kimi, yəni özünümüdafiə tədbiri kimi həmin heyvanı vura bilər. Belə halda həmin şəxsə qanun pozuntusu şamil edilmir. Canavarı təqib edib, vuranda ekoloji qanun pozuntusu hesab olunur.

Ovçuluğa dair qanunvericiliyə əsasən, çaqqalı ovçuluq bileti olan şəxslər Regional ekologiya idarələrindən ova icazə bileti almaqla il boyu ovlaya bilərlər".

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **ekoloq Telman Zeynalov** hesab edir ki, yırtıcı heyvanların insanlara bu cür hücum etməsinin günahkarı, elə insanların özləridir: "Havalar soyuduqca, vəhşi heyvanlar aşağıya düşürlər. Çünki artıq yem bazası qalmayıb. Hər yer müxtəlif qurumlar tərəfindən zəbt edilib. Məsələn, Böyük Qafqazın ərazilərində dağlarda, meşələrdə obyektlər, turizm üçün yerlər tikildiyi üçün canlı aləm kənarda qalıb. Nəticədə vəhşi heyvanlar özləri üçün yer axtarırlar. Ac qaldıqları üçün də insanlara hücum edib, yeməyə çalışırlar. İnsanlar çalışıb, vəhşi heyvanların qarşısına çıxmasınlar. Xüsusilə də gecə saatlarında ehtiyatlı davransınlar".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**




**Cümə söhbətləri**

**Bismillahir-Rahmənir-Rahim!**
**Həzrət Peyğəmbərin (s) mövludu ərəfəsindəyik. Allah Təaladan duamız budur ki, cəmi ümmətə Peyğəmbərimizi (s) və Əhli-Beytini (ə) dərk edib, onların həqiqi ardıcıllarından olmaq tofiqini qismət etsin.**

# Daş qəlbləri diriltdən din

**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**



## Gözəl əxlaqları kamilləşdirmək

İlin müəyyən zaman kəsimləri olur ki, inanc əhli xüsusilə öz ruhi-mənəvi durumuna nəzarət edir və bunun inkişafı, dərinləşməsi üçün səylər edir. Belə zaman kəsimlərinə, ilk növbədə, mübarək Ramazan ayı və məhərrəm-səfər əyyamı aiddir. Amma əslində insan öz vücudi durumuna diqqətlə yanaşsa, ilin əlamətdar günlərini həftələrə, bunları isə öz növbəsində aylara çevirə bilər və nəticədə hər zaman Yaradanın istədiyi bir halətdə bulunar.

Toplum da belədir: tutduğu yol onun gəldiyi mənzili müəyyən edir. Əslində, İslamın ilkin dövrünə nəzər saldıqda, toplumun tutduğu yolun onun vəziyyətini necə əsaslı surətdə dəyişməsinin şahidi oluruq. Bir zaman Rəsuli-Əkrəmin (s) gətirdiyi din, bədəvi ərəbləri tənəzzülün son pilləsindən bəşəriyyət üçün sivilizasiya standartları müəyyən edən bir toplum vəziyyətinədək ucaltmışdır. Lakin, sonrakı mərhələdə ümmət Həzrət Rəsulullahın (s) yolundan xeyli dərəcədə sapdı, İlahi seçimdən kənar düşdü, hərc-mərclik və fitnə meydana gəldi. Qısa bir müddətdə hidayət olmuş toplum, eynilə qısa bir müddətdə çoxsaylı əyintilərə məruz qaldı.

İndi də həmin tendensiya davam etməkdədir. Bir çox məsələlərdə müsəlmanlar Peyğəmbər (s) və Əhli-Beytinin (ə) təbliğ etdiyi məntiqi, elmi, estetik, gözəl bir təlim olan İslamı deyil, özlərinə sərf edən bir modeli rəhbər tuturlar.

Həzrət Peyğəmbərin (s) nəcib missiyasını müxtəlif formlarda xarakterizə etmək olar. Amma, nəzərimizcə, ən qəşəng formada bunu Rəsuli-Əkrəmin (s) özü təqdim etmişdir: «Mən gözəl əxlaqı kamilləşdirmək üçün seçilmişəm».

Həzrət Rəsuli-Əkrəm (s) buyurur: “Fərq etməz - qocadır, yoxsa cavan, qadındır, yoxsa kişi, alimdir, yoxsa qeyri-alimdir - əgər mənə bənzəmək istəyirsə, bilməlidir ki, sizlərin ən xoş əxlaqlı olanı - mənə ən çox bənzəyənədir”.

Burada dəqiq meyar göstərilmişdir: əgər toplumun inkişafı gözəlliyə doğru, məhəbbətə doğru, kamilliyə doğrudursa, əgər burada hökm sürən ab-hava insanların çirkini çirkin, gözəlliyi gözəl görməsinə imkan verir və yardım edirsə, deməli, vəziyyət çox yaxşıdır. Burada ayrı-ayrı fərdlərin də, ümumilikdə cəmiyyətin də inkişaf üfüqləri çox işıqlı olur.

Yox, əgər zahiri salamatlıq pərdəsi altından toplumun əxlaqi-mənəvi aşınmasının işartıları sezilirsə, deməli bu cəmiyyətin perspektivi Allah Təalanın istədiyindən çox-çox uzaqdır. Burada insanlar özlərinə və digərlərinə zülm edir, öz yaradılış fəlsəfələrinə zidd yolla gedirlər. İqtisadi tərəqqinin, texniki inkişafın, sosial rifahın, ümumilikdə hər bir şeyin ünvanı, hədəfi - kamillik olmalıdır. Əks təqdirdə, bunların hamısının çox nisbi əhəmiyyəti vardır.

## Fitrəti susdurmamalı

Məlumdur ki, Allah Təala insanlara zaman-zaman Öz elçilərini (ə) göndərmişdir ki, onları düzgün yola hidayət etsinlər. Həzrət Əlidən (ə) nəql edilən hədisdə peyğəmbərlərin (ə) göndərilməsinin fəlsəfəsi gözəl surətdə açıqlanır: «(Allah Təala) peyğəmbəri onların (insanların) arasından seçdi və peyğəmbərlərini dalbadal onlara göndərdi ki, fitrətlərinə qoyulmuş İlahi əhdə əməl etmələrini istəsin. Onun unudulmuş nemətlərini yadlarına salsın və İlahi əmri çatdırmaqla höccəti onlara tamam etsin və onların ağıl xəzinələrini çölə çıxararaq, (Allahın) qüdrət nişanələrini onlara göstərsin».

İnsanın dini-imanı bir yana, onun bir fitrəti vardır. Və İslam məhz insanın fitrətinə ünvanlanan çağırışlar edir. İstər namaz qılan olsun, istər qılmayan - namusa, abır-həyaya əl uzatmağı, qeybət etməyi, yalan danışmağı, xəyanət etməyi hər bir kəs öz-özlüyündə pis bir əməl kimi qəbul edir. Mütəal Allah çirkinliklərə nifrəti insanın fitrətində qoymuşdur.

İlahi peyğəmbərlərin (ə) də missiyası insanın bu fitrətini oyatmaqdan ibarətdir. İnsanın daxilində olan siqnalvericini diriltməkdir dinin hədəfi. Vicdan adlanan bu siqnalverici barədə ötən bəhslərdə təfsilatı ilə söhbət etmişik. İblisin (lən) bütün işləri məhz bu siqnalvericilərlədir - əlindən gələni edir ki, bunları zəifləsin, sıradan çıxarsın, səsini batırsın. İblis istəyər ki, insan öz siqnalvericisinin - vicdanının səsini eşitməsin və bu niyyətlə çoxsaylı dekorasiyalar işə salınır: çirkinliklərin gözəl formalarda təqdimat cəhdi, mənasız həyat tərzinin bütləşdirilməsi, ucuz və keyfiyyətsiz şoular, içki və narkotiklər, anlaşılmaz komplekslər, vəsvəsələr, «düşünmə!» tipli təlimat və yönəltmələr - insanın vicdanını susdurmaq üçün istifadə olunan vasitələri saymaqla qurtarmaz. Həttа yeni bir “yaşayış” yorması da meydana gəlib - “virtual yaşayış”. Hamısı nəyə tuşlanıb? İnsanı iradəvi durumdan çıxarmağa.

## Düzgün seçim etmək

Lənətlik iblisin insanı iradəvi durumdan çıxarması məsələsinə diqqət edilməsi, kamillik yolunu getmək istəyən insan üçün son dərəcədə böyük önəm təşkil edir. Belə ki, varlıqlar içində insana seçim qabiliyyəti verən Allah, onu haqqa yetişmək üçün bütün zəruri məlumatlarla təmin etmişdir. İlahi peyğəmbərlər (ə) vasitəsilə insana yaxşı və pis anladılmış, kamilliyə yetişmək üçün ən optimal yol göstərilmişdir. İnsana xas olan seçim etmək qabiliyyəti, onun iradəvi surətdə öz həyat yolunu müəyyən etmək imkanını şərtləndirir. Və insanın iradəvi varlıq olaraq seçim etməsi, onun düzgün məlumatdan bəhrələnməsinə bilavasitə bağlıdır. Məlumatın kafi səviyyədə olmasını, insanın dürüst və hərtərəfli bilgi ilə təmin edilməsini nəzərə alsaq, məsələ yalnız iradə tətbiq edərək əməldən pisliklərdən imtina etməyə və yaxşılıqlara yön almağa qayıdır.

Lakin əsas mətləb məhz bundan sonra başlanır. İnsanın fitrəti, əqli, iradəsi, bu iradəni düzgün tətbiq edib lazımi seçim etmək qabiliyyəti, seçim üçün məlumat bazasının olması - ümumi halda kamala yetişmək üçün bütün zəruri vasitələrin olmasına baxmayaraq, çoxlu sayda insanlar məhz əyri yolu, reqress yolunu, məhvə sürükləyən yolu seçir. Nədən? Bax burada iradəvi seçimi zəifləmək məsələsi gündəmə gəlir və buna aparan bütün müqəddimələr işə salınır. İnsan başa düşür ki, filan cür etməlidir, filan cür isə etməməlidir, amma müəyyən mərhələdə süstlük etməsi, zəiflik etməsi, iradəsini aradan aparan işlərə qol qoyması ucbatından nəticə determinləşdirilmiş, yəni öncədən müəyyən edilmiş olur. Haqq da bilinir, haqqa gedən yol da bəlli olur, amma insan özünü düzgün seçimdən məhrum etmiş olur. Allah Təala cəmi insanları haqqa doğru irəliləyənlərdən qərar versin, inşəallah!

## Nemətləri unutmamaq

Hədisdə göstərilən digər məqamlara diqqət edək. Nemətləri xatırlamağa gəlincə, əsas məqam odur ki, insan nemətlərlə əhatə olunduğu halda, bunlara vərdiş edərək, unudur, görmür. İnsan xəstələndikdə sağlamlığın necə nemət olduğunu düşünür, dostunu, yaxınını itirdikdə qədrini bilir, körpəsi azacıq soyuqladıqda belə, narahatlıqdan özünə yer tapa bilmir - yəni, əksər hallarda neməti itirdikdə onun nemət olduğunu anlayır. Halbuki, insan tamamilə təmənnasız olaraq sağlam orqanlarla, immun sistemi ilə, dərk və təhlil etmək qabiliyyəti ilə, saysız-hesabsız digər nemətlərlə təmin edilmişdir; lakin bunu unutmağa meyillidir. İnsan diqqət yetirsə, görər ki, nemətlərlə əhatə olunmuşdur - həm maddi, həm də qeyri-maddi nemətlərlə.

Höccəti çatdırmaq məqamına gəldikdə, peyğəmbərlər (ə) zaman-zaman məbus edilmiş, vəzifələndirilmişlər ki, insanlara İlahi əmrləri çatdırsınlar. Tarix boyu hər zaman Allah Təala elçilər (ə) göndərməklə insanları qəflətdən ayıltmış, nicata yetişmək üçün dəqiq yol göstərmişdir. Amma insanların bir qismi bu hökmləri unutmağa üstünlük verirlər. İblisvari məxluqların ardınca gedərək, özlərini zillətə salırlar, əbədi ruhlarını puç yollarda israf edirlər.

Əql məqamına gəldikdə, insanın öz istedadlarını bilib, onları tətbiq etməsi - özü böyük bir məsələdir. Bütöv elmi sahələr vardır ki, insanın istedadlarının təzahür edilməsinin metodologiyası üzərində çalışırlar. Dinimiz əqli bir xəzinə hesab edərək, bunu üzə çıxarmağın vacibliyini vurğulayır və eyni zamanda, digər insanlara da bu elmin zəkatından verməyi tövsiyə edir - axı əql bölüşməklə azalmır. Əksinə, yayıldıqca, tədbiqini tapdıqca, cilalandıqca daha da dərinləşən və artan bir nemətdir.

## Xəstə qəlblərə məlhəm olan Peyğəmbər (s)

Göstərilən kontekstdə Rəsuli-Əkrəmi (s) tanımaq xüsusilə önəm daşıyır. Həzrət Peyğəmbərin (s) mübarək varlığını tanımaq çox önəmlidir. Bu tanıma, Həzrətin (s) ardıcıllarının hansı yolla getməsinə yardım edər. Rəsuli-Əkrəm (s) buyurmuşdur: «Mən - Allahın tərbiyə etdiyiyəm, Əli isə mənim tərbiyə etdiyimdir».

Yəni Peyğəmbər (s) və Əhli-Beyti (ə) ən gözəl, ən kamil dəyərlərə sahib idi və bu dəyərləri insanlara aşılayırdı. Bu gözəl missiya barədə Həzrət Əli (ə) buyurur: «O, (Rəsulallah) öz elmi ilə insanların arasında gözəl bir təbib idi. Məlhəmlərini düzəldib hazırlamışdı. Və dağlamaq alətlərini qızdırmışdı. Onları lazım olan yerlərə - kor qəlblərə, kar qulaqlara və lal dillərə basardı. O, hikmət nurundan işıq götürməmiş, parlaq elmlərin çaxmağı ilə bir alov şölələndirməmiş, gövşəyən heyvanlar və daş parçası kimi olan şəxslərdə öz dərmanı ilə qəflət və sərgərdanlıq xəstəliyini müalicə edirdi».

Rəsulallah (s) gəlmişdi ki, xəstə qəlbləri müalicə etsin, daşlaşmış, möhürlənmiş, qəflətdə olan insanları islah etsin. İlahi kəlamla, öz gözəl əxlaq və davranışı ilə insanları hidayət yoluna dəvət etsin. Və möcüzə baş verdi. Tarixi baxımdan qısa bir müddətdə Allah yolunu seçmiş böyük bir insan toplusu yetişdi. Daş qəlbləri diriltdən bir din - mübarək İslam dini Yer üzündə bərqərar oldu.

## Hər kim insanlarla insafla rəftar edər...

**Bu dinin daşıyıcısı olan mömінin vəsfində Allahın Peyğəmbəri (s) buyurmuşdur**: *«Hərəkət və rəftarları mülayim və mehribandır, görüşü şirin...*

*Hər bir şeyin ən üstününü axtarır, xislətlərin ən dəyərlisini...*

*Nifrət bəslədiyi kəsə zülm etmir və sevdiyi şəxsə görə günaha batmır.*

*Xərci azdır, çox kömək və yardım edir...*

*İşi çox yaxşı yerinə yetirir, sanki onu özü üçün görür.*

*Gözləri aşağı baxır.*

*Bağışlayan əli var, bir şey istəyəni boş geri qaytarmır.*

*Sözünü ölçüb-biçir və dilini lal edir...*

*Batili, hətta dostundan qəbul etmir və haqqı, hətta düşmənindən olsa belə, inkar etmir.*

*Elmi ancaq bilməyə görə öyrənir və biliyi yalnız əməl etməyə görə əldə edir...*

*Dünyapərəstlərlə rəftar edəndə - onların ən zirəngi, axirət axtaranlarla olanda - onların ən pəhrizkarıdır».*

**Həzrət Peyğəmbər (s) başqa yerdə buyurur**: *“Üç sifət vardır ki, əgər hər kimdə olarsa, imanın kamil olmasının sifətlərindən olar:*

***1.** O kəs ki, şad olar, şadlığı onu batilə tərəf çəkməz.*

***2.** Qəzəblənən zaman qəzəbi onu haqdan çıxartmasın.*

***3.** Nə zaman qüdrət əldə edər, onun olmayana əl uzatmaz".*

**Həzrət Peyğəmbər (s) buyurur:** *“Hər kim ehtiyacı olana maddi yardım edər və insanlarla insafla rəftar edər - bu cür insan həqiqi mömindir”.*

**Həzrət Peyğəmbərdən (s) nəql edilir:** *“Xəlq (yaranmışlar) - Allahın çörəkyeyənləridirlər. Ona görə də Allah yanında ən sevimli insan o kəsdir ki, Allahın çörəkyeyənlərinə fayda verər və ailəsini sevindirər”.*

Allahım, bizləri dünya və axirətdə Həzrət Peyğəmbər (s) və Əhli-Beytlə (ə) birgə et!

Allahım, insanların gözəl əxlaqlı, mənəviyyatlı, fitrətlərini unutmayan, nemətləri dərk edən, manqurdlaşmaqdan uzaq olan, vilayət nuruna bağlı bir durumda qərar ver!

Allahım, Vətənin və ümmətin problemlərinin həllini, işğal altında olan torpaqların azad olmasını, 12-ci İmam Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f) tezliklə zühur etməsini nəsib et! Amin!

# YENİ MÜSAVAT

Son səhifə

N 250 (7139) 23 noyabr 2018




## Doqquz dəfə evlənib, çünki...

Bu günə qədər səkkiz dəfə evlənən və İngiltərənin ən çox evlənən insanı olmağı bacaran 68 yaşlı Ron Şeppard 26 yaşlı nişanlısı Kristal Markez Lalec ilə doqquzuncu evliliyini gerçəkləşdirməyə hazırlaşır. Şeppard nişanlısı ilə arasındakı 42 yaş fərqə əhəmiyyət vermədən deyir ki, nəhayət, axtardığı sevgini tapıb. Kişinin bu günə qədər gerçəkləşdirdiyi səkkiz evliliyin hər biri uğursuz olub. Amma o, ana vətəni Filippindən gəlib İngiltərədə yaşayan 26 yaşlı qadına ilk baxışda aşiq olub və onun sayəsində "dünyanın ən xoşbəxt adamı" olub. 2004-cü ildə səkkizinci həyat yoldaşı ilə evlənən Şeppard həmin vaxt da həyat yoldaşının onun həyatını dəyişdirdiyini və hər günlərini bal ayı kimi keçirdiklərini deyib. Səkkiz qayınana ilə mübarizə aparmağın heç də asan olmadığını deyən və ilk nikahını da 1966-cı ildə gerçəkləşdirən Şeppardın 8 uşağı, 6 nəvəsi var. İngilis adamın ən uzun evliliyi 11 il, ən qısa evliliyi isə 10 ay boyunca davam edib.

## İt öz sahibini xəstəxanada tək qoymadı

Londonun Harrou rayonunda bir it öz sahibinin xəstəxanadan çıxmasını günlərlə həmin xəstəxananın qabağında gözləyib. Lenta.ru saytının xəbərinə görə, it sahibinin səhhəti onu parkda gəzintiyə çıxararkən pisləşib. Adı açıqlanmayan britaniyalının təcili tibbi yardım maşını apararkən itini də həmin maşına buraxıblar. İtin sahibinə tibbi yardım göstərilən zaman it də Nortuik Park xəstəxanasının qabağında gözləyib. Tibb müəssisəsinin işçiləri itə isti yemək, su və yatacaq veriblər. İtin orda nə qədər qaldığı açıqlanmır. Amma kişini xəstəxanadan buraxanda o, qapıda itinin onu gözlədiyini görüb. Oktyabr ayında isə Miçiqan ştatında sahibləri tərəfindən atılan bir itin aylarla atdıldığı yerdə öz sahibini gözləməsi barədə xəbər yayılmışdı. Bu ləqəbli it sahiblərinin atdığı zibil və mebellərin yanında gözləyirdi.



## Polisi dişləyən ita 9 ay həbs cəzası verilib



**Böyük Britaniyada Çau-çau küçüyü polisi əlindən dişlədiyi üçün türməyə düşüb. "Daily Mail" nəşrinin verdiyi xəbərə görə, bu qərar şəhər sakinləri üçün ədalətli sayılmayıb.**

İnsident Stok Bruern kəndində baş verib. Banql ləqəbli dörd aylıq küçük öz bankir-milyoner sahibləri olan Heysin evinin qapılarından qaçaraq yola çıxıb. Həmin vaxt onu polislər yaxalamağa çalışsa da, sözə qulaq asmayan it polislərdən birinin əllərindən və çiyinlərindən dişləyib. İti şöbəyə gətiriblər və dəmir barmaqlıqlar arxasında oturdublar. İt 9 ay boyunca həbsdə qala bilər. Bu isə 1991-ci ildə qəbul edilmiş "Təhlükəli itlər haqqında" qanun aktına əsasən həyata keçirilib.

Amma polislərin bu qərarı yerli əhali arasında birmənalı qarşılanmayıb. Z gün ərzində 2.5 min insan Facebookda çıxış edərək, itin azad olunmasını tələb edib. İtin sahibi Deyvid Heys bildirib ki, polisə hörmət edir, amma bu qərarı qeyri-adekvat və qəddarlıq hesab edir. O, qeyd edib ki, 15 yaşlı oğlu da itlə olan bu ayrılıqdan o qədər kədərlənib ki, depressiyaya girib.

Bundan başqa, sahibi deyib ki, it dəmir barmaqlıqlar arasında qorxu və stress hissi keçirir. O, vəkil tutub ki, sonuncular hadisəni araşdırsınlar. Polis də qeyd edib ki, əgər it uşağa hücum etsə və ya qəzaya səbəb olsa, bu zaman cəmiyyətin reaksiyası fərqli olardı. Onlar itin müdafiəçilərini ikili standartlarla çıxış etməkdə ittiham etdilər. İtin dişlədiyi polisə ciddi xətər dəyməyib. Amma bununla belə, xəstəxanada baxışdan keçməli olub. Ona peyvənd və bir neçə antibiotik vurublar.




**QOÇ** - Qarşılıqlı münasibətlərdə uğurlu gedişlər edəcəyiniz gözlənilir. Bu, gələcək işləriniz üçün dönüş ola bilər. Şəxsi büdcənizi artırmaq üçün əhəmiyyətli görüşləriniz də mümkündür.

**BUĞA** - Əsəblərinizi sakitləşdirmək, daxili harmoniyanızı bərpa etmək üçün bütün gücünüzü səfərbər edin. İnsanları özünüzdən uzaqlaşdıran addımlar atmayın. Vaxtınızı sevgiyə sərf edin.

**ƏKİZLƏR** - Gün ərzində bəd enerjili Ay bürcünüzdə olduğundan qida rasionunuza qeyri-ənənəvi təamlar əlavə etməyin. Nahardan sonra maraqlı adamlarla görüşləriniz mümkündür.

**XƏRÇƏNG** - Qohumluq müstəvisində qərəzli addımlara yol verməyin. Əks təqdirdə təklənə bilərsiniz. Mərhəmətli olun və çalışın ki, rəğbət qazanasınız. Yersiz tələbkarlığınızı minimuma endirin.

**ŞİR** - Müqəddəs hədəfləriniz var, amma onlara yetişmək üçün lazımi addımlar ata bilmirsiniz. Məhz bu proqnozu oxuduğunuz andan etibarən hərəkətə keçin, Tanrı yardımçınız olar, inşallah.

**QIZ** - Tərəddüdlərinizi dəf etmək üçün təcrübəli adamlarla məsləhətləşmələr aparın. Bu gün pul məsələlərini, uzaq səfərləri təxirə salın. Ailə-sevgi münasibətlərini arxa plana keçirməyin.

**TƏRƏZİ** - Öhdəlikləriniz çoxaldığından bu təqvimi bir qədər yorğun şəkildə başa vuracaqsınız. Amma nəticənin səmərəsini göz önünə gətirib təmkinli olmalısınız. Axşam maraqlı görüşlər gözlənilir.

**ƏQRƏB** - Nə qədər ki öz bürcünüz "hakimdir", ətrafınızda layiqli tərəfdaşlar toplamağa çalışın. Bu, perspektivlərinizə yetişməkdə xeyli irəliləyiş yarada bilər. Təşəbbüskarlığı əldə saxlayın.

**OXATAN** - Həyatınızın həssas məqamı yetişməkdədir. Hər addımı ölçülü-biçili atın ki, uduzmayasınız. Hər şeydən öncə qarşılıqlı münasibətlərə fikir verin. Məsuliyyətinizi hiss edin.

**OĞLAQ** - Maraqlı bir gün yaşayacaqsınız. Əgər dinə, adət-ənənəyə zidd hərəkətlərə yol verməsəniz, ovqatınız yüksək olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şansınız olacaq.

**SUTÖKƏN** - Qarşınızda böyük işlər durur. Onların öhdəsindən gəlmək üçün daxili sabitliyinizi bərpa etməlisiniz. İşgüzar görüşlərinizi intensivləşdirin. Yaşca böyük doğmalarınızın qayğısına qalın.

**BALIQLAR** - Özünüzdə yarımçıq işlər bol olduğu halda, başqalarına əlavə problemlər yaratmayın. Quranda deyildiyi kimi, ya xeyirxah söz deyin, ya da susun... Bütün bunlar düşünməyiniz üçündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bara girmək üçün pizza vermək istədi



**Amerikanın Massaçusete ştatında yerli bara daxil olmaq istəyən bir qız şəxsiyyət vəsiqəsi yerinə bir dilim pizza vermək istəyib. Bu barədə 25 noyabrda "The Telegraph" yazıb. Yerli universitetlərdən birinin tələbəsi olduğu güman edilən qız bununla da barın mühafizəçisinə guya öz yaşını bildirmək istəyib. Amma müəssisə əməkdaşı yeməyi sənəd qismində qəbul etməkdən imtina edib. Çünki içəridə alkoqollu içkilər satılır və içəri girmək üçün yaş məhdudiyyəti var. Rədd cavabı alan qız bar mühafizəçisinin üzünə yumruq atıb. Güman edilir ki, gənc qızın bu hərəkətlərinə onun həddən artıq sərxoş vəziyyəti səbəb olub. Barın ortaqlarından olan Rasif Rafik qıza təhsil həyatında uiğurlar arzulayıb. "Tələbə vaxtı bizim də həyatımızda elə tədbirlər olub ki, onların nəticəsi barədə biz sonradan peşman olmuşuq".**

Amerikada 21 yaşına qədər insanların alkoqollu içki alması qadağan edilib.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100